

Milli azadlıqdan şirin nemət yoxdur!


YENİ AZƏRBAYCAN

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur. Yeni Azərbaycan Partiyasının orqanı.

11 sentyabr 2024-cü il, çərşənbə № 165 (6751) Qiymətı 60 qəpik


# Paytaxt mühüm tədbirə hazırlaşır...

## İlham Əliyev Bakı Olimpiya Stadionunun ərazisində COP29-a hazırlıqla bağlı görülən işlərlə tanış olub




Bax səh. 2

# Zəngəzur dəhlizi layihəsinə qarşı olanlar...

Bax səh. 4

# Sülh prosesində yeni mərhələ...

## Rəsmi Astana vasitəçisiz danışıqlar üçün platforma rolunu oynamağa hazırdır



Bax səh. 2

# Sabitlik və inkişafa təhdid...

Bax səh. 4

## “Böyük Qayıdış”ın uğurlu addımları!

İkinci Qarabağ müharibəsinin başa çatmasından sonra, işğaldan azad olunmuş ərazilərdə genişmiqyaslı bərpa və infrastruktur quruculuğu işlərinə başlanılması dövlətimizin gücünü bir daha sübut etdi. Azərbaycan erməni vandalları tərəfindən dağıdılaraq yerlə-yeksan edilən şəhər və kəndlərimizdən didərgin düşən qaçqınların öz doğma yurd-yuvalarına qayıtmalarını tezliklə təmin etmək niyyətindədir. Xüsusilə vurğulamaq lazımdır ki, Prezidentin rəhbərliyi Qarabağda həyata keçirilən bərpa və yenidənqurma işləri...

Bax səh. 5

## Fransaya cavab!

Azərbaycanın öz ərazi bütövlüyünü və suverenliyini təmin etməsi Ermənistana havadarlıq edən beynəlxalq dairələri ciddi narahat edir. Bu baxımdan, xüsusilə Fransa öndə gedir. Görünən odur ki, Fransa ermənilərdən çox ermənilik edir, əsassız olaraq ölkəmizin beynəlxalq imicinə zərbə vurmağa çalışır. Bu yaxınlarda rəsmi Parisin öz vətəndaşlarına Azərbaycana səyahət etmək xəbərdarlığı da bunun daha bir göstəricisidir. Fransanın Avropa və Xarici İşlər Nazirliyinin Azərbaycanda guya Fransa vətəndaşlarının saxlanıldığı və hədəf alındığı barədə əsassız iddiaları səbəb gətirərək ölkəmizə dair açıqladığı sərt...

Bax səh. 3

## Neftlə bağlı pessimist proqnozlar

Son günlər dünya bazarında neftin qiyməti ucuzlaşmaqda davam edir. Avqust ayının ikinci yarısında və sentyabr ayının ilk həftəsində qlobal birjalarda neftin satış qiymətlərində enmələr müşahidə edilib. Sentyabrın ilk ongünlüyündə neftin dünya bazarlarında orta satış qiyməti 70-79 dollar təşkil edib. Ümumilikdə, son 20 gündə qiymətlər 15 faiz ucuzlaşaraq orta qiymət üzrə 75 dollara düşüb. Sentyabrın 8-də London qitələrarası birjasında keçirilən ticarət əməliyyatlarında “Brent” neftinin 1 barelinin qiyməti...

Bax səh. 6

## Qərbdən uzanan “dirijor çubuğu”...

2020-ci ildə Ermənistanın məğlubiyyəti ilə bitmiş II Qarabağ müharibəsi bəzi xarici ermənipərəst dairələrin fərqli adlar altında ölkəmizə qarşı kampaniyalar təşkil etməsini, fərqli spektrlərdən yalan və böhtan fikirlər irəli sürməsini “şərtləndirdi”. Maraqlıdır ki, ötən 4 ildə Azərbaycanın bütün sahələr üzrə apardığı uğurlu siyasət xüsusilə Qərb tərəfindən gözardı edilir - Avropanın “demokratik təsisat” adlanan bəzi qurumları daha da uzağa gedərək ölkəmizdə baş verən hadisələri özünəməxsus donda qiymətləndirir...

Bax səh. 5

# Avropaya giriş “yadqitəlilər” üçün çətinləşir

Bax səh. 6

## Aİ Slovakiyanı niyə cəzalandırır?



Bax səh. 7

## 2977 ölü, 24 itkin...



Bax səh. 7

# Paytaxt mühüm tədbirə hazırlaşır...





## İlham Əliyev Bakı Olimpiya Stadionunun ərazisində COP29-a hazırlıqla bağlı görülən işlərlə tanış olub

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Bakı Olimpiya Stadionunun ərazisində COP29-a hazırlıqla bağlı görülən işlərlə tanış olub.

AZƏRTAC xəbər verir ki, Prezidentin köməkçisi Anar Ələkbərov dövlətimizin başçısına COP29 məkanının tədbirə hazırlıq vəziyyətinə gətirilməsi barədə məruzə etdi.

Eyni zamanda, dövlətimizin başçısına ümumilikdə bu tədbirlə bağlı stadionun 49 hektarlıq perimetrində Mavi Zona üzrə aparılan tikinti işləri, məkanların dizaynı, qonaqlar üçün müxtəlif xidmətlərin təşkili, paytaxtda nəqliyyat əməliyyatlarının hazırlığı, qonaqların yerləşdirilməsi prosesi və digər işlər barədə məlumat verildi. Həmçinin 8 hektar ərazidə qurulan Yaşıl Zona ilə bağlı görülən işlər məruzə edildi.

Qeyd olundu ki, ölkəmizdə COP29-un yüksək səviyyədə keçirilməsi üçün bütün zəruri tədbirlər görülür, lazımi infrastruktur yaradılır.







# Sülh prosesində yeni mərhələ...

## Rəsmi Astana vasitəçisiz danışıqlar üçün platforma rolunu oynamağa hazırdır



II Qarabağ müharibəsinin yekunları özündə siyasi-hərbi reallıqlar qədər əhəmiyyətli iqtisadi-ticari reallıqları da əks etdirir. Bölgədə sabitliyin formalaşması dolayısı ilə yeni: Mərkəzi Asiya - Cənubi Qafqaz - Kiçik Asiya vahid geostrateji məkanını formalaşdırır ki, bu da gələcək üçün mühüm iqtisadi dividendləri özündə əks etdirir. Yeni dövrün ən mühüm çağırışı olan “əlverişli ticari yol” tematikası Şərq ilə Qərbin qovşağında yerləşən Azərbaycanın formalaşdırdığı geocoğrafi situasiyanın əhəmiyyətini yüksək səviyyədə aktuallaşdırır. Xüsusilə, Şərq-Qərb, Şimal-Cənub seqmentləri üzrə yüksək rentabelli infrastruktura malik olması Azərbaycanın böyük bir region üçün yeni inkişaf mərhələsi yaradacağını belə deməyə əsas verir.

Bunun üçün isə ən vacib şərt sülh prosesinin uğurla nəticələnməsidir. 2022-ci ildən aparılan danışıqlar prosesi artıq mühüm bir mərhələyə qədəm qoyub - artıq bir sıra məsələlərin həlli ilə bağlı ortaq mövqeyə gəlinməsi haqqında fikirlər səslənir. Eyni zamanda, 13 kilometrlik ərazidə delimitasiya və demarkasiya prosesinin uğurlu icrası qısa zamanda sülh prosesinin müsbət notlarla yekunlaşacağına həm də bir ümid yaradır.

### Astanadan növbəti təklif...

Qeyd edək ki, sülh prosesinin yekun mərhələyə qədəm qoyması üçün beynəlxalq aləm də öz imkanlarını səfərbər etməyə hazırdır - bu mənada, Qazaxıstanın ortaya qoyduğu mövqe xüsusilə təqdirəlayiqdir. İki tərəfin bir masa arxasında vasitəçisiz müzakirə aparması üçün rəsmi Astana hər zaman öz imkanlarını təqdim edir. Sentyabrın 9-da Qazaxıstan Respublikasının Prezidenti Kasım-Jomart Tokayev ilə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev arasındakı telefon danışığı zamanı da bu məsələyə bir daha toxunulub. Tərəflər Azərbaycan və Qazaxıstan arasında münasibətlərin strateji tərəfdaşlıq xarakteri daşıdığını vurğulayıblar. Qazaxıstan Prezidenti Astananın Ermənistan ilə Azərbaycan arasında sülh müqaviləsi üzrə danışıqların aparılması üçün platforma rolunu oynamağa hazır olduğunu bildirib. Dövlətimizin başçısı Azərbaycan üçün Astanada iki ölkə arasında bu danışıqların aparılması təklifinin məqbul olduğunu qeyd edib.

### Qazaxıstanın sülh üçün səfərbər olması...

Qazaxıstana gəldikdə isə, həm Azərəbaycanla, həm də Ermənsitanla bu və ya digər şəkildə müttəifqliyə malik olan, bir sıra beynəlxalq strukturlarda çiyin-çiyinə təmsilçilik daşıyın rəsmi Astana anlayır ki, Mərkəzi Asiyaya yaxın bölgədə sülhün bərqərar edilməsi mühüm əsaslar formalaşdıracaq. Qeyd etdiyimiz kimi, Cənubi Qafqazda sülhün və davamlı sabitliyin formalaşması böyük bir coğrafyanın - Orta Asiya - Cənubi Qafqaz - Kiçik Asiya bölgəsi üçün yeni imkanlar, perspektivlər deməkdir.

Vurğulamaq yerinə düşər ki, bu ilin ötən dövründə Qazaxıstan przedinti Kasım-Jomart Tokayev iki dəfə Azərbaycana səfər edib. Mart ayında ölkəmizdə dövlət səfərində olan Qazaxıstanın dövlət başçısı bu ilin iyulunda Şuşa şəhərində keçirilən Türk Dövlətləri Təşkilatının Dövlət başçılarının qeyri-rəsmi Zirvə görüşündə təmsil olunub və Qarabağ Bəyannaməsini imzalayıb. Bu Bəyannamə ikitərəfli əlaqələrin inkişafına xüsusi rəng qatır.

Eyni zamanda, Astananın yeni dönəmdə Ermənistan ilə Azərbaycan arasında müzakirə platformasına çevrilməsi imkanları hələ bu ilin aprelində Qazaxıstan Prezidenti Kasım - Jomart Tokayevin İrəvana səfəri zamanı müzakirə predmeti olmuşdu. Qazaxıstan Prezidentinin Astananın İrəvan və Bakının sülh müqaviləsi bağlamaq istəyini alqışlamasını önə çəkməsi, xoşməramlılıq missiyasını üzərinə götürərək danışıqlar üçün platforma təqdim etməyə hazır olduğunu bildirməsi isə bu fikirləri daha da qətiləşdirmişdi. Kasım-Jomart Tokayev İrəvanda brifinqdə bildirmişdi ki, “Əsas məqsədimiz dost ölkələrimizi bir-birinə daha da yaxınlaşdırmaq, regionda sülh və davamlı sabitlik üçün yollar açmaqdır”.

### Azərbaycan vasitəçisiz görüşləri dəstəkləyir

Xatırladaq ki, rəsmi Astananın səsləndirdiyi bu təklif ilk deyil - bu ilin mayında Qazaxıstanın Almatı şəhərində Azərbaycan və Ermənistan XİN rəhbərlərinin görüşü baş tutmuşdu. XİN başçıları səviyyəsində bu ikitərəfli təmasın ən mühüm detallarından biri məhz ilk dəfə vasitəçisiz şəkildə keçirilməsi idi. Bu isə olduqca mühüm bir detaldır. Həmin görüş və ümumiyyətlə ondan qabaq baş verənlər bir daha təsdiqlədi ki, ikitərəli təmaslar daha qəti nəticələr üçün zəmin yarada bilir. Hətta həmin dövrdə Qazaxıstan Xarici İşlər Nazirliyinin rəsmi nümayəndəsi Aybek Smadiyarov bildirmişdi ki, Qazaxıstan hakimiyyəti Ermənistan və Azərbaycan xarici işlər nazirlərinin Almatıda görüşünü təşkil edərkən danışıqlarda vasitəçi rolunu oynamayacaq.



Vurğulanmalıdır ki, Azəfrbaycan hər zaman bu məsələni xüsusi olaraq vurğulayıb ki, aparılan danışıqlarda üçüncü tərəfə ehtiyac yoxdur. Hətta Prezident İlham Əliyev hələ 2021-ci ilin oktyabrında işğaldan azad edilmiş Cəbrayılda rayon ictimaiyyətinin nümayəndələri ilə görüşündə bildirmişdi ki, Azərbaycanla Ermənistan arasında sərhədlərin delimitasiyası, sülh müqaviləsi, bir-birinin ərazi bütövlüyünün tanınması istiqamətində, ondan sonra iqtisadi əlaqələrin bərpası, nəqliyyat kommunikasiyalarının açılması, bütün bunlar gündəlikdə olan məsələlərdir: “Azərbaycan tərəfində siyasi iradə var. Ermənistan tərəfində də olarsa, hesab edirəm ki, iki ölkə özləri heç bir vasitəçisiz bu məsələləri həll edə bilər və bölgədə uzunmüddətli sülh ola bilər”.

Artıq Azərbaycanın ərazi bütövlüyü təmin edilib, suverenliyi bərpa olunub. Regionda sülhün və təhlükəsizliyin təmini, Ermənistan ilə Azərbaycan arasında münasibətlərin normallaşdırılması prosesi beynəlxalq gündəlikdən düşüb. Prezident İlham Əliyev bu ilin fevralın 14-də andiçmə mərasimində bu məsələyə toxunaraq bildirmişdi ki, bizə bu məsələdə vasitəçi lazım deyil: “Mən bunu demişəm, bu yüksək kürsüdən bir daha demək istəyirəm. Biz öz məsələmizi həll etmişik”.

### Mövqeyimiz aydın və ədalətlidir...

Beləliklə, sülh üçün münbit zəminin yaranması, müzakirə üçün isə vasitəçisiz platformanın təklif edilməsi danışıqların yaxın zamanda uğurlu nəticəyə hasil olma ehtimalını artırır. Azərbaycanın sülhlə bağlı mövqeyi aydın və ədalətlidir -ölkəmiz hər zaman sülhün və əməkdaşlığın bərpasına çalışıb. Hətta Ermənistanın torpaqlarımızı işğal altında saxladığı illərdə belə Azərbaycan məsələnin sülh yolu ilə həllinin tərəfdarı kimi çıxış edib. Konstruktiv anlaşmanı, siyasi-iqtisadi əməkdaşlığın inkişaf etdirilməsini, normal qonşuluq münasibətlərini əsas götürən Azərbaycan bu gün də eyni mövqedədir. Ölkəmiz iki ildən artıqdır ki, bölgədə sülhün və anlaşmanın hökm sürməsi üçün bütün səyini səfərbər edib. İndiyə qədər aprılan danışıqlar prosesində bu və ya digər imkanlar bütün predmetlər üzrə müzakirə olunub. Bir neçə ay öncə delimitasiya prosesinin ilkin mərhələsinə start verilməsi də bunun göstəricisi sayıla bilər.

Sülhün əsas şərti isə onun davamlı olmasıdır. Davamlı sülhün əldə olunması üçün isə bütün maneələr aradan qalxmalıdır. Məsələn, Ermənistanın Konstitusiyasında Azərbaycana qarşı əsassız ərazi iddiaları var ki, İrəvan bunun aradan qaldırılmasına səy göstərməlidir. İrəvanın bu məsələdə manipulyativ deyil, daha qətiyyətli və birmənalı mövqe sərgiləməsi məsələnin nəticəsini daha da tezləşdirə bilər. Yəni, uzun illərdən bu yana gözlənilən dayanıqlı sülhə daha tez nail olmaq mümkündür.

### Ermənistan sülh üçün səy göstərməlidir!

Ermənistan isə regionda yeni siyasi-iqtisadi mərhələdə iştirakçı olaraq yer almaq istəyirsə, özünün əsassız iddialarından əl çəkməli və bu və ya digər şəkildə Konstitusiya dəyişikliiynə nail olmalı, konstruktiv mövqe sərgiləməlidir. Bir sözlə, Ermənistan sülh prosesinin hazırki və proqnozlaşdırılan mərhələlərinin səmərəli şəkildə yekunlaşması üçün səy göstərməlidir. Əks halda Ermənistan yeni regional, hətta qlobal səviyyəli iqtisadi layihələrdən kənarda qalma təhlükəsi yaşayacaq - Azərbaycanın təşəbbüsü və iştirakı ilə həyata keçirilən layihələr isə ümumən regiona yeni inkişaf tempi qazandırmaqdadır. Ermənistan yenə də təhlükəsizlik arxitekturasına təhdid yaradan amil rolunda çıxış etməkdə “israrlı olarsa”, bu, rəsmi İrəvan üçün xoşagəlməz nəticələrə yol aça bilər.

***Pərviz SADAYOĞLU***



# Prezident İlham Əliyev Azərbaycan Milli Paralimpiya komandası üzvlərinin bir qrupunu təltif edib

Prezident İlham Əliyev Azərbaycan Milli Paralimpiya komandası üzvlərinin təltif edilməsi haqqında Sərəncam imzalayıb.

AZƏRTAC xəbər verir ki, Sərəncama əsasən, iki nəfər "Şöhrət" ordeni, iki nəfər 1-ci dərəcəli "Vətənə xidmətə görə" ordeni, iki nəfər 2-ci dərəcəli "Vətənə xidmətə görə" ordeni, bir nəfər 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni, bir nəfər 1-ci dərəcəli "Əmək" ordeni, iki nəfər 2-ci dərəcəli "Əmək" ordeni, 2 nəfər 3-cü dərəcəli "Əmək" ordeni, dörd nəfər "Tərəqqi" medalı, dörd nəfər isə "Azərbaycan Respublikası Prezidentinin fəxri diplomu" ilə təltif edilib.

İdmançılar və onların məşqçiləri bu mükafatlara Fransanın Paris şəhərində keçirilən XVII Yay Paralimpiya Oyunlarında qazanılmış yüksək nailiyyətlərə və Azərbaycan idmanının inkişafında xidmətlərinə görə layiq görülüblər.

Prezident İlham Əliyev, həmçinin "Fransanın Paris şəhərində keçirilən XVII Yay Paralimpiya Oyunlarında Azərbaycan Respublikasının idmançıları və onların məşqçiləri üçün yüksək nəticələrə görə mükafatların müəyyən edilməsi haqqında" Sərəncam imzalayıb. Sərəncama əsasən, birinci yeri tutan hər bir idmançıya iki yüz min manat, onun məşqçisinə yüz min manat, ikinci yeri tutan hər bir idmançıya yüz min manat, onun məşqçisinə əlli min manat, üçüncü yeri tutan hər bir idmançıya əlli min manat, onun məşqçisinə isə iyirmi beş min manat mükafat müəyyən edilib.

Nazirlər Kabinetinə bu Sərəncamdan irəli gələn məsələləri həll etmək tapşırılıb.

# 11-ci üçtərəfli görüş...

## Azərbaycan, Türkiyə və Gürcüstanın müdafiə nazirləri hərbi əməkdaşlığın perspektivlərini müzakirə ediblər

Sentyabrın 10-da Batumi şəhərində Azərbaycan, Türkiyə və Gürcüstan müdafiə nazirlərinin 11-ci üçtərəfli görüşü keçirilib. Müdafiə Nazirliyinin mətbuat xidmətinin məlumatına görə, Azərbaycanın müdafiə naziri, general-polkovnik Zakir Həsənovun, Türkiyənin milli müdafiə naziri Yaşar Gülerin və Gürcüstanın müdafiə naziri İrakli Çikovaninin görüşündə əsrlərdir xalqlarımızın mehriban qonşuluq və dostluq şəraitində yaşadığı, bu gün də dövlət və hökumət başçılarımızın rəhbərliyi ilə qarşılıqlı əlaqələrin yüksələn xətt üzrə inkişaf etdiyi xüsusi olaraq qeyd edilib. Qarşılıqlı etimada əsaslanan əməkdaşlığın xalqlarımızın xoşbəxt gələcəyi və rifahının təmin olunması baxımından böyük əhəmiyyət kəsb etdiyi bildirilib.

Üçtərəfli görüşdə müasir dövrün çağırışları, eləcə də regionumuzun təhlükəsizliyinə təhdid törədə biləcək amillərlə mübarizədə birgə səylərin birləşdirilməsinin və bu istiqamətdə fəaliyyətlərin qarşılıqlı əlaqədə həyata keçirilməsinin vacibliyi qeyd edilib. Müdafiə nazirləri üçtərəfli və ikitərəfli birgə təlimlərin, qarşılıqlı təcrübə mübadiləsinin əhatə dairəsinin genişləndirilməsinin əhəmiyyətini diqqətə çatdırıblar.

Əminliklə vurğulanıb ki, müdafiə sahəsində üçtərəfli əməkdaşlığın inkişafı təkcə ölkələrimiz üçün deyil, eləcə də regionda dayanıqlı sülhün, sabitliyin və təhlükəsizliyin bərqərar olmasına böyük töhfələr verəcək.

Görüşdə hərbi, hərbi-texniki, hərbi təhsil, hərbi tibb sahələrində əməkdaşlığın yeni perspektivləri müzakirə olunub, həmçinin qarşılıqlı maraq doğuran bir çox mövzularla bağlı ətraflı fikir mübadiləsi aparılıb.

Sonda üçtərəfli görüşün yekununa dair protokol imzalanıb və media nümayəndələri üçün mətbuat konfransı keçirilib.

## İkitərəfli görüşlərdə hansı məsələlər müzakirə olunub

Qeyd edək ki, Azərbaycanın müdafiə naziri, general-polkovnik Zakir Həsənov həmkarları ilə ikitərəfli görüş də keçirib. Belə ki, sentyabrın 10-da Gürcüstanın müdafiə naziri İrakli Çikovani arasında keçirilən görüşdə İrakli Çikovani iki ölkə arasında əlaqələrin inkişafında dövlət başçılarımızın mühüm rol oynadığını xüsusi vurğulayıb.

Qonşu və qardaş ölkəyə səfərindən məmnunluğunu ifadə edən general-polkovnik Zakir Həsənov bir çox sahələrdə olduğu kimi, hərbi sahədə də əlaqələrimizin davamlı olaraq inkişaf etdiyini qeyd edib. Azərbaycanın müdafiə naziri bildirib ki, qarşılıqlı səfərlərin və müxtəlif formatda görüşlərin keçirilməsi ölkələrimiz arasında əməkdaşlığın yüksək səviyyədə olduğunun bariz nümunəsidir.

Görüşdə ölkələrimiz arasında hərbi əməkdaşlığın perspektivlərindən danışılıb, həmçinin birgə təlimlərin intensivliyinin artırılması barədə ətraflı fikir mübadiləsi aparılıb. Ölkələrin beynəlxalq səviyyədə qəbul olunmuş ərazi bütövlüyünün dəstəkləndiyi diqqətə çatdırılıb.

Sonra tərəflər regionda sülhün və təhlükəsizliyin təmin olunması, hərbi, hərbi texniki, hərbi təhsil sahələrində əməkdaşlığın perspektivləri, eləcə də qarşılıqlı maraq doğuran digər məsələləri müzakirə ediblər.

Zakir Həsənov həmçinin, Türkiyənin milli müdafiə naziri Yaşar Güler ilə görüşüb. Görüşdə müdafiə nazirləri Azərbaycan və Türkiyə arasında bütün sahələrdə olduğu kimi, hərbi sahədə də əməkdaşlığın, strateji müttəfiqliyin yüksək səviyyədə olduğunu, eyni zamanda, dostluq və qardaşlıq münasibətləri üzərində qurulduğunu diqqətə çatdırıblar. Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev və Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın iki qardaş ölkə arasında müdafiə sahəsindəki mövcud əməkdaşlığı və perspektiv imkanları yüksək dəyərləndirdiyini xüsusi vurğulayan müdafiə nazirləri əlaqələrimizin daha da gücləndirilməsi məqsədilə belə görüşlərin zəruriliyini qeyd ediblər.

Müdafiə nazirləri qarşılıqlı inam, etimad və dəstəyə əsaslanan əməkdaşlığın bundan sonra da uğurla inkişaf etdiriləcəyini əminliklə bildiriblər. İkitərəfli görüşdə birgə təlimlərin, təcrübə mübadiləsinin intensivliyinin artırılması, regionda və dünyada mövcud hərbi-siyasi proseslər, bölgədə dayanıqlı sülhün və sabitliyin təmin edilməsi yolları, həmçinin qarşılıqlı maraq doğuran müxtəlif məsələlər haqqında ətraflı fikir mübadiləsi aparılıb.

## 10-cu görüş ötən il Bakıda keçirilmişdi

Xatırladaq ki, Azərbaycan, Türkiyə və Gürcüstanın müdafiə nazirlərinin 10-cu üçtərəfli görüşü 2023-cü il noyabrın 27-də Bakı şəhərində keçirilmişdi. Üç ölkənin müdafiə nazirlərinin həmin görüşündə birgə hərbi əməkdaşlığın inkişaf perspektivləri və regional təhlükəsizliyə töhfə verəcək bir sıra məsələlər müzakirə olunmuş, sonda Azərbaycan, Türkiyə və Gürcüstan müdafiə nazirlərinin 10-cu üçtərəfli görüşünün yekununa dair Protokol imzalanmışdı.

Göründüyü kimi, üç ölkənin müdafiə nazirlərinin görüşü və bu görüşün müdafiə sahəsindəki üçtərəfli əməkdaşlığa verdiyi təkan regionun təkcə hərbi deyil, siyasi, iqtisadi təhlükəsizliyi baxımından da önəmlidir. Ümumiyyətlə, Azərbaycan, Gürcüstan və Türkiyə arasındakı sıx üçtərəfli siyasi, iqtisadi əlaqələrdən doğan birgə layihələrin gerçəkləşməsi bölgənin inkişafında, sabitliyinin qorunmasında və dünyaya inteqrasiyasında aparıcı faktora çevrilib.







## Üçtərəfli platformanın əhəmiyyəti

Məlumdur ki, üçtərəfli platforma uzun müddətdir mövcuddur. Hər üç ölkənin liderlərinin, xarici işlər və müdafiə nazirlərinin görüşləri mütəmadi olaraq keçirilir. Azərbaycan, Gürcüstan və Türkiyə arasında təməli illər öncə qoyulan uğurlu siyasi, iqtisadi əməkdaşlıq Avropa və Asiya qitələrinin qovuşuğunda yerləşən Cənubi Qafqaz regionunun strateji əhəmiyyətini xeyli artırıb. Bakı ilə Ankaranın təşəbbüsləri, o cümlədən sülh diplomatiyası bölgədə sabitlik, təhlükəsizlik və əməkdaşlıq üçün etibarlı zəmin formalaşdırır. Postmüharibə dövründə bölgədə qlobal əhəmiyyətli yeni geostrateji konfiqurasiyanın formalaşmasında Azərbaycan-Türkiyə müttəfiqliyi aparıcı faktor kimi çıxış edir. Qonşu Gürcüstan da iki dövlətlə birgə addımlayaraq regionun strateji gələcəyini birlikdə inşa etmək istəyini və niyyətini aydın ifadə edir.

Azərbaycan, Gürcüstan və Türkiyə arasındakı sıx üçtərəfli siyasi, iqtisadi əlaqələrdən doğan birgə layihələrin gerçəkləşməsi bölgənin inkişafında, sabitliyinin qorunmasında və dünyaya inteqrasiyasında aparıcı faktora çevrilib. Nəhəng enerji şirkətlərinin də iştirak etdiyi Azərbaycan, Gürcüstan və Türkiyənin enerji sahələri üzrə əməkdaşlığı öz səmərəliliyinə görə dünyada nümunəvi təcrübələrdən biri hesab oluna bilər. Azərbaycan, Gürcüstan və Türkiyənin enerji sahəsində əməkdaşlığı həm region dövlətlərinin iqtisadi, siyasi və təhlükəsizlik maraqlarına, həm də Avropa İttifaqı ölkələrinin enerji təhlükəsizliyini təmin etmək siyasətinə uyğundur. Xatırladaq ki, üç ölkənin əməkdaşlığı ilə 2006-cı ildə Bakı-Tbilisi-Ceyhan neft kəməri layihəsi reallığa çevrilib. Bundan əlavə, Bakı-Tbilisi-Ərzurum qaz kəməri, Bakı-Tbilisi-Qars dəmir yolu xətti üçtərəfli strateji əməkdaşlığın səmərəli nəticələridir.

Regional hərbi əməkdaşlıq məsələlərinə gəldikdə isə qeyd etməliyik ki, Türkiyə NATO üzvüdür, Gürcüstan Avropa İttifaqı ilə Assosiasiya Sazişi imzalayıb, Azərbaycan isə heç bir hərbi blokda iştirak etmir və bütün tərəflərlə qarşılıqlı, faydalı, bərabərhüquqlu əməkdaşlığa üstünlük verir. Bu yanaşmalara baxmayaraq, hər üç ölkə müxtəlif sahələr üzrə, xüsusilə hərbi sahədə birgə əməkdaşlıq imkanlarını getdikcə daha da inkişaf etdirir. Digər tərəfdən, Türkiyənin Qafqazda keçirilən hərbi təlimlərdə iştirak etməsi, onun regionda möhkəmlənməsi və nüfuzunun artması deməkdir. Bu isə istənilən halda həm Türkiyənin, həm Azərbaycanın, həm də Gürcüstanın strateji maraqlarına uyğundur.

## Azərbaycan-Gürcüstan-Türkiyə əməkdaşlığı regionda sabitliyə xidmət edir

2014-cü ildən başlayaraq Azərbaycan, Türkiyə və Gürcüstan müdafiə nazirləri səviyyəsində baş tutan görüşlər isə mütəmadi olaraq növbə ilə ölkələrdən birinə ötürülür. Ümumiyyətlə, Azərbaycan, Türkiyə və Gürcüstanın oxşar təhlükəsizlik problemləri, hərbi sahədə əməkdaşlığı şərtləndirən amillərdən hesab edilir. Türkiyənin Gürcüstanın NATO-ya inteqrasiyasında müsbət rol oynaya biləcək, ortaq quru sərhədlərinə malik yeganə qonşusu olduğunu da diqqətdən qaçırmaq olmaz. Təbii ki, Türkiyə strateji tərəfdaşlarına istehsal etdiyi silahları tədarük edir. Birgə təlimlərdə isə yeni silahların praktik tətbiqi ilə bağlı metodik məşğələlər və təcrübə mübadiləsi keçirilir.

Zaman keçdikcə hər üç ölkə arasında bütün istiqamətlər üzrə daha da sıx münasibətlər yaranır. Azərbaycan-Gürcüstan-Türkiyə arasında əməkdaşlıq regionda sülhün və sabitliyin qorunmasına, rifah səviyyəsinin artırılmasına xidmət edir. Xatırladaq ki, bir neçə il öncə Azərbaycan, Gürcüstan və Türkiyə arasında müdafiə sahəsində əməkdaşlıq haqqında Anlaşma Memorandumu da imzalanıb. Bu isə hər üç ölkə arasında hərbi əlaqələrin daha da genişlənməsi, gücləndirilməsi və keyfiyyət baxımından yeni bir səviyyəyə çatdırılması üçün çox vacib sənəd hesab edilir.

Onu da qeyd edək ki, regionda uzun müddət davam edən təhdidlərin qarşısının alınması üçün hər üç tərəfdaş ölkə səylərini birləşdirərək aktiv şəkildə müştərək təlimlərə qoşulmağa qərar verib. Birgə hərbi təlimlərin təşkili barədə razılaşma daha əvvəl keçirilən üçtərəfli görüşlər nəticəsində əldə olunub və onlar mütəmadi olaraq növbə ilə tərəfdaş ölkələrdən birinin ərazisində reallaşdırılır. Bu təlimlər ekspertlər tərəfindən də üçtərəfli əməkdaşlığın müsbət nəticəsi kimi dəyərləndirilir.

Beləliklə, üçtərəfli platforma həm Azərbaycan, Türkiyə və Gürcüstanın strateji maraqlarının təmin olunması, həm də regional əməkdaşlığın əhatə dairəsinin genişləndirilməsi baxımından əhəmiyyətlidir. Bu, həm də yaxşı perspektivlər yaradır və gələcəkdə yeni işbirliyi nümunələrinin yaradılmasını təşviq edə bilər.

*Nardar BAYRAMLI*

# Fransaya cavab!

## Fransa Koloniyalarının Azadlıq Cəbhəsi Parisin ölkəmizə səyahət xəbərdarlığını pisləyib

Azərbaycanın öz ərazi bütövlüyünü və suverenliyini təmin etməsi Ermənistana havadarlıq edən beynəlxalq dairələri ciddi narahat edir. Bu baxımdan, xüsusilə Fransa öndə gedir. Görünən odur ki, Fransa ermənilərdən çox ermənilik edir, əsassız olaraq ölkəmizin beynəlxalq imicinə zərbə vurmağa çalışır. Bu yaxınlarda rəsmi Parisin öz vətəndaşlarına Azərbaycana səyahət etmək xəbərdarlığı da bunun daha bir göstəricisidir. Fransanın Avropa və Xarici İşlər Nazirliyinin Azərbaycanda guya Fransa vətəndaşlarının saxlanıldığı və hədəf alındığı barədə əsassız iddiaları səbəb gətirərək ölkəmizə dair açıqladığı sərt səyahət xəbərdarlığı qəbulolunmazdır.

## Parisin məqsədi...

Rəsmi Bakının bəyan etdiyi kimi, Fransa tərəfindən verilmiş bu cür əsassız, qərəzli qərar və bəyanat bu ölkənin Azərbaycanla münasibətləri daha da gərginləşdirmək niyyətindən xəbər verir. Digər tərəfdən, bu ölkənin Avropa və Xarici İşlər Nazirliyi Azərbaycanla bağlı sentyabrın 4-də dərc etdiyi səyahət xəbərdarlığında ölkəmizin hüquq sisteminə kölgə salmağa və "Dağlıq Qarabağ Muxtar Vilayəti", "ətraf rayonlar" kimi ifadələrdən istifadə edərək Azərbaycanın ərazi bütövlüyünə xələl gətirməyə cəhd göstərib. Məsələ ilə bağlı Qərbi Azərbaycan İcması da Parisə etiraz etmişdi.

Yeri gəlmişkən, Fransa Koloniyalarının Azadlıq Cəbhəsi də Fransanın Avropa və Xarici İşlər Nazirliyinin (XİN) Azərbaycana səyahət xəbərdarlığı ilə bağlı bəyanatına cavab verib. Bəyanatda deyilir ki, Fransanın Baş naziri hələ öz hökumətini formalaşdırmasa da, istefaya gedən daxili işlər nazirinin addımları və Fransa Xarici İşlər Nazirliyinin Azərbaycanla bağlı həyəcan xəbərdarlıqları heç kəsi çaşdırmır. Hökumətin növbəti addımı şübhəsiz ki, "Fransa vətəndaşları"na sözügedən ölkəni ziyarət etməyi tamamilə qadağan etmək olacaq. Bu qərar insan hüquqları və insan və malların sərbəst hərəkəti ilə ziddiyyət təşkil edir, tamamilə qeyri-qanuni olacaq. Fransa dövlətinin addımlarının yalnız bir məqsədi var - Bakı Təşəbbüs Qrupunun Birləşmiş Millətlər Təşkilatı çərçivəsində ona Qoşulmama Hərəkatı tərəfindən verilmiş mandatı yerinə yetirməyə davam etməsinə yol verməmək. Bakı Təşəbbüs Qrupunun missiyası dünyada kolonializmə son qoymaqdır.

## "Fransa beynəlxalq səviyyədə imicinin pisləşdiyini yaxşı anlayır"

Qeyd olunub ki, Fransa beynəlxalq səviyyədə imicinin pisləşdiyini yaxşı anlayır - bunun kökündə Bakı Təşəbbüs Qrupunun təşkilata üzv ölkələrin ərazilərinin "insan hüquqları ölkəsi" (Fransa) tərəfindən necə zəbt edildiyini, yerli xalqlara qarşı necə davrandığını və bu gün də davranmağa davam etdiyini beynəlxalq ictimaiyyətin diqqətinə çatdırması dayanır: "Kanakinin (Yeni Kaledoniya) cari vəziyyəti bunun ən yaxşı nümunəsidir. Fransa əsarəti altındakı son koloniyalardakı təşkilatların Azadlıq Cəbhəsi koloniyalarını qorumaq üçün ən kobud və antidemokratik hiyləgərliklərə əl atmaqdan çəkinməyən, siyasi tənəzzüldə olan bir ölkənin bu üsullarına qarşı üsyan edir. Burada məqsəd varlığını davam etdirməyə imkan verən maraqlarını qoruyub saxlamaqla böyük dəniz güclərinin hit-paradında yerini qorumaqdır. Biz öz tərəfimizdən Bakı Təşəbbüs Qrupu ilə BMT-nin müəyyən etdiyi çərçivədə, nəhayət müstəqilliyimizi əldə etmək və xalqlarımızın maraqlarını qorumaq naminə zəruri hesab etdiyimiz hər hansı digər tərəfdaşla bundan sonra da işləyəcəyik".

Qeyd edək ki, bəyanatı Fransa müstəmləkəsi altında olan ərazilərdəki 14 siyasi hərəkat rəhbəri imzalayıb.

## Azadlıq Cəbhəsində hansı qüvvələr birləşib?



DÉCLARATION

DU FRONT DES ORGANISATIONS DES DERNIÈRES COLONIES SOUS DOMINATION FRANÇAISE



Alors que le premier ministre français n'a pas encore formé son gouvernement, les gesticulations du ministre de l'intérieur démissionnaire et les avertissements alarmistes du quai d'Orsay concernant l'Azerbaïdjan ne trompent personne.

La prochaine étape sera certainement l'interdiction absolue signifiée aux « ressortissants français » de se rendre sur le territoire concerné. Cette décision serait totalement arbitraire, contraire aux "droits de l'homme" et à "la libre circulation des biens et des personnes ». L'agitation des services de l'Etat français n'a qu'une visée : empêcher le Groupe d'Initiative de Baku de continuer son mandat délivré par les Pays non alignés au sein de l'ONU.

La mission de ce Groupe vise à mettre un terme à la colonisation dans le monde.

La France mesure la détérioration de son image au niveau international lorsque les pays membres du GIB relatent, à l'international, de quelle façon le "pays des droits de l'homme" a conquis ces territoires et comment ont été et sont toujours traitées les populations autochtones, le cas actuel de la Kanaky étant le plus probant à ce niveau.

Le Front des organisations des dernières colonies sous domination française s'élève contre ces méthodes d'un autre âge, remises au goût du jour par un pays politiquement à la dérive qui n'hésite plus à user des subterfuges les plus grossiers et les plus antidémocratiques pour sauvegarder ses dernières colonies et les intérêts inhérents qui lui permettent de conserver sa place dans le hit-parade des grandes puissances maritimes.

Pour notre part, nous continuerons à œuvrer, avec le Groupe d'Initiative de Baku, dans le cadre défini par l'O.N.U., ou tout autre partenaire que nous jugerons nécessaire pour obtenir enfin notre indépendance et sauvegarder les intérêts de nos peuples respectifs!

Ümumiyyətlə, Fransa öz tarixində insanlığa qarşı çoxsaylı cinayətlər törədib, bu gün də Afrikada və digər yerlərdə bir sıra xalqları öz müstəmləkəsi altında saxlamağa çalışır. Paris ilk növbədə törətdiyi cinayətlərin hesabını verməlidir. Özünü demokratiyanın beşiyi kimi təqdim etməyə çalışan Fransanın əslində, tarixən müxtəlif xalqlara qarşı müstəmləkəçilik siyasəti həyata keçirdiyi bütün dünyaya məlumdur. Təəssüf ki, beynəlxalq ictimaiyyət rəsmi Parisin bu siyasətinə qarşı adekvat reaksiya vermir. Lakin Azərbaycan bu məsələdə prinsipial mövqe nümayiş etdirir və Fransanın müxtəlif xalqlara qarşı repressiv siyasətinə etiraz səsini ucaldır. Eyni zamanda, müstəmləkəçiliyə qarşı aparılan mübarizəyə siyasi və mənəvi dəstək verilir. Bakı Təşəbbüs Qrupunun yaradılması da bu məqsədə xidmət edir. Bakı Təşəbbüs Qrupu tərəfindən bütün dünyada müstəmləkəçiliyə məruz qalan xalqlara, xüsusilə Karib adaları, Cənubi Amerika, Sakit okean və Hind okeanındakı fransız müstəmləkələrinə həsr olunmuş beynəlxalq tədbirlər keçirilir.

Xatırladaq ki, Fransa Koloniyalarının Azadlıq Cəbhəsi də bu ilin iyulunda Fransa koloniyalarında müstəqillik uğrunda mübarizə aparan siyasi partiya və hərəkatların rəhbərlərinin Bakıda keçirilən birinci qurultayında yaradılıb. Fransa və Niderlandın 17 koloniyasının səlahiyyətli nümayəndələri Azadlıq Cəbhəsinin yaradılması haqqında Yekun Bəyannaməni imzalayıblar. Həmçinin iştirakçılar Cəbhənin Nizamnaməsini təsdiqləyiblər.

Təbii ki, rəsmi Paris bütün bunları qıcıqla qarşılayır. Fransa XİN-in vətəndaşlarına səyahət xəbərdarlığı da buradan qaynaqlanır. Göründüyü kimi, ölkəmiz Fransanın müstəmləkəçi siyasətinə qarşı mübarizə aparan xalqların yanındadır və onlara dəstək verir. Qeyd edək ki, Fransa müstəmləkəçiliyinə qarşı yaradılan Bakı Təşəbbüs Qrupu qısa zaman kəsiyində mühüm işləri ilə seçilib. Bu istiqamətdəki tədbirlər bundan sonra da davam etdiriləcək.

*Nardar BAYRAMLI*

## Rəsmi İrəvan növbəti dəfə sülhə pəl vurmağa cəhd edir

# Sabitlik və inkişafa təhdid...

Məğlub Ermənistanın rəsmiləri davamlı olaraq sülh prosesi ilə bağlı reallıqla bir araya sığmayan, sağlam məntiqdən uzaq olan cəfəng iddialar səsləndirirlər. Bu baxımdan baş nazir Nikol Paşinyanın İrəvan Dialoq Forumunun açılışında, xarici işlər naziri Ararat Mirzoyanın Lüksemburqun xarici işlər və ticarət naziri ilə birgə mətbuat konfransında postmüharibə dövründə iki ölkə arasında başlayan tənzimləmə prosesi, kommunikasiyaların açılması, sülh sazişinin imzalanması ilə bağlı ifadə etdikləri fikirlər də istisnalıq təşkil etmir. Aydın şəkildə görünür ki, Ermənistan rəsmiləri səmimilikdən çox uzaqdırlar və növbəti dəfə riyakarlığa əl ataraq sülh prosesinə pəl vurmağa çalışırlar. Azərbaycan Xarici İşlər Nazirliyinin mətbuat katibi Ayxan Hacızadə Ermənistanın xarici işlər nazirinin "sülh sazişi" və kommunikasiyalarla bağlı fikirləri ilə əlaqədar medianın sualını cavablandırarkən Ararat Mirzoyanın səsləndirdiyi cəfəng iddiaların gerçək mahiyyətinə diqqət çəkib. Azərbaycan XİN rəsmisi o qənaəti ifadə edib ki, Ermənistan növbəti dəfə ictimaiyyətin fikirlərini real vəziyyətdən yayındırmaq məqsədi güdür.

## Layihədə bütün problemli məsələlərə aydınlıq gətirilməlidir

Azərbaycanın 44 günlük müharibənin və 23 saatlıq lokal xarakterli antiterror tədbirlərinin nəticələrinə uyğun olaraq yaratdığı reallıqlar Cənubi Qafqaz coğrafiyasında uzunmüddətli sabitlik, sülh və əməkdaşlıq üçün real zəmin yaradıb. Açılan fürsət pəncərələrini dəyərləndirməklə və imkanlardan səmərəli istifadə etməklə Azərbaycanla Ermənistan arasında başlayan tənzimləmə prosesini sürətləndirmək və məntiqi sonluğa çatdırmaq, beləliklə də, qarşılıqlı etimad mühiti formalaşdırmaq mümkündür. Bunun üçün hər iki tərəf qətiyyətli siyasi iradə ortaya qoymalıdır. Qalib Azərbaycanda belə bir iradə var. Ölkəmiz bir qayda olaraq sülhə sadiqlik nümayiş etdirir və daim yeni təşəbbüslər irəli sürür. Lakin eyni fikirləri məğlub Ermənistan barəsində demək mümkün deyil. Revanşizm mövqeyi sərgiləyən, Fransa, Hindistan, İran, ABŞ kimi dövlətlərdən öldürücü silahlar tədarük edən, sərhəd bölgələrinə hərbi texnika cəmləşdirən bu ölkə yeni müharibə hazırlıqları görür. Aydın şəkildə başa düşülür ki, Ermənistanın baş naziri Nikol Paşinyan və onun komandasında yer alan digər rəsmilər sözdə sülhə hazır olduqlarını bildirsələr də, reallıqda prosesləri manipulyasiya predmetinə çeviriblər.

Ermənistanın tənzimləmə prosesində səmimi olmadığını baş nazir Nikol Paşinyanın İrəvan Dialoq Forumunun açılışında, Ararat Mirzoyanın isə Lüksemburqun xarici işlər və ticarət naziri ilə birgə mətbuat konfransında səsləndirdiyi fikirlər bir daha təsdiqləyir. N.Paşinyan bildirib ki, sülh müqaviləsinin 80 faizi artıq razılaşdırılıb, o cümlədən 13 maddə və iki maddə qismən razılaşdırılıb - onların hər biri iki cümlədən ibarətdir. Baş nazir sazişin razılaşdırılmış hissələrini imzalamağı və qalan bəndlər üzrə işi davam etdirməyi təklif edir. A.Mirzoyan isə bildirib ki, sonuncu dəfə Ermənistan tərəfindən Azərbaycana təqdim edilmiş "sülh sazişi" layihəsinin mətni tam olaraq razılaşdırılıb və layihə razılaşdırılmış müddəaları ehtiva edir. Bununla yanaşı, o qeyd edib ki, Ermənistan tərəfi öz ərazisindən keçən hər hansı bir yola nəzarəti üçüncü tərəfə vermək niyyətində deyil. Bununla yanaşı, yük və sərnişinlərin təhlükəsiz hərəkətini təmin etmək üçün hər iki ölkədə xarici özəl şirkətin prosesə cəlb edilməsi məsələsinin müzakirə edildiyi diqqətə çatdırılıb.

Baş nazirin və XİN rəhbərinin dedikləri başdan-ayağa yalan, real vəziyyətlə hər hansı bir bağlılığı olmayan absurd iddialardır. Ermənistan rəsmiləri otuz il ərzində işğalçılıq siyasətindən əl çəkməyən, regionu təhdidlərlə, müharibə riskləri ilə üz-üzə qoyan Ermənistanı indi dünyaya sülhpərvər qiyafədə tədim etməyə çalışırlar. Halbuki bu belə deyil. Postmüharibə dövründə tənzimləmə prosesi heç də Nikol Paşinyanın və Ararat Mirzoyanın təsvir etdikləri formada getmir və Ermənistan da sülh göyərçini olmaqdan çox uzaqdır. İkinci Qarabağ müharibəsinin başa çatmasından sonrakı dörd ildə regionda yeni müharibə təhlükəsi, eskalasiya riskləri hələ də qalmaqdadır. Eyni zamanda şərti sərhədlər boyunca təxribatlar baş verir. Xüsusilə də son vaxtlarda Kəlbəcər və Naxçıvan istiqamətində törədilən təxribatlar intensivləşib. Sülhə təhdidlər yaradan bütün bu kimi faktların məsuliyyəti isə bilavasitə Ermənistanın hərbi-siyasi rəhbərliyinin üzərinə düşür. Ayxan Hacızadənin bildirdiyi kimi, Azərbaycanla Ermənistan arasında sülh və dövlətlərarası münasibətlərin qurulması haqqında saziş layihəsi üzrə sonuncu dəfə Azərbaycan tərəfindən iyun ayında təqdim olunmuş şərhlərə Ermənistan tərəfi avqust ayının sonunda, təqribən 70 gün sonra şərhlərini göndərib. Bu qədər gecikmə özlüyündə bir göstəricidir və qarşı tərəfin tənzimləmə prosesinə laqeydliyini ortaya qoyur. Eyni zamanda, Nikol Paşinyan, Ararat Mirzoyan saxtakarlığa əl atmaqdan, reallığı təhrif etməklə beynəlxalq ictimaiyyəti aldatmaqdan da çəkinməyiblər. "Ermənistan tərəfi Azərbaycanın təqdim etdiyi şərhlərə adekvat reaksiya vermək əvəzinə layihədə əks olunması zəruri olan müddəaları çıxarmaqla problemlərə göz yummağa cəhd göstərib. Layihə üzrə indiyə qədər bir çox müddəalar, yəni təqribən 80 faiz razılaşdırılsa da, bəzi müddəaların razılaşdırılması hələlik mümkün olmayıb. Ancaq bu o demək deyil ki, Ermənistan tərəfi təklif etdiyi kimi, razılaşdırılmamış müddəaları layihədən çıxarmaqla saziş imzalanmalıdır. Bu, məqbul hesab edilə bilməz. Çünki sülh sazişinin davamlı və uğurlu olması üçün bir sıra istiqamətlərdə iki ölkə arasında problemli məsələlərə layihədə aydınlıq gətirilməlidir", - deyə Ayxan Hacızadə bildirib.










## Azərbaycanın iki mühüm şərti

Real sülhün əldə olunması üçün Azərbaycan qarşı tərəfə iki mühüm şərtini təqdim edib. Burada Azərbaycan hansısa bir, necə deyərlər, şıltaqlığa əl atmır, əksinə uzunmüddətli sülh üçün fundamental zəmin formalaşdırmağa çalışır. Ölkəmizin birinci şərti Ermənistan konstitusiyasının dəyişdirilməsi ilə bağlıdır. Rəsmi İrəvan isə bu şərtin icrasını yubadır, bu istiqamətdə konkret addımlar atmır, proseslərə 2027-ci ildən sonra start verəcəyini bildirir. Ölkəmizin birmənalı mövqeyi belədir: Sülh sazişinin imzalanması üçün bütün fundamental amillər təmin olunmalı, o cümlədən hüquqi boşluqlar tamamilə aradan qaldırılmalıdır. Bu gün sülhə gedən yolda ən böyük maneə isə məhz Ermənistanın konstitusiyası və bir sıra digər qanunvericilik aktlarıdır. Həmin sənədlərdə qonşu dövlətin Azərbaycana qarşı ərazi iddiaları açıq-aşkar legitimləşdirilib. Ermənistan konstitusiyasından Azərbaycana qarşı ərazi iddialarını özündə ehtiva edən müddəalar çıxarılmadan hər hansı bir sülh sazişinin imzalanması mümkün deyil. Çünki hüquqi əsaslar yaradılmayan sülh qalıcı sülh olmayacaq.

Eyni zamanda, Azərbaycan reallıqdan çıxış edərək Ermənistana artıq ölü quruma çevrilmiş Minsk qrupunun de-yure ləğvi ilə bağlı ATƏT-ə birgə müraciət ünvanlamağa çağırış edir. Ermənistan isə müxtəlif bəhanələr gətirməklə bunu etməyə tələsmir. Prezident İlham Əliyevin də dəfələrlə bildirdiyi kimi, artıq uzun müddətdir ki, bu qrup fəaliyyətsizdir. Hazırda Minsk qrupunun fəaliyyətdə olması üçün heç bir səbəb yoxdur. Çünki həmsədrlər de-fakto bir-biri ilə müharibədədirlər, yəni onların ikisi digərinə qarşı bir yerdədirlər. Fransa burada bütün imkanlardan məhrum edilib. Onlar nəinki vasitəçi, heç Azərbaycan razılıq vermədən regionda ola bilməzlər. Ölü qurumu "diri" saxlamaq heç bir məntiqə sığmır. De-fakto mövcud olmayan Minsk qrupunun de-yure də ləğv edilməsinin vaxtı çoxdan çatıb. Ermənistanın Azərbaycanın bəhs olunan çağırışına adekvat cavab verməməsi bu ölkənin sülh istəyindən uzaq olduğunu bir daha təsdiqləyir. Bu kimi məqamlara diqqət çəkən Ayxan Hacızadə vurğulayıb: "Azərbaycana qarşı ərazi iddialarını davam etdirən, keçmiş münaqişənin qalığı olan Minsk qrupunun isə bərpasına çalışan Ermənistanın "sülh sazişi"nin mətninin əhatə dairəsini azaldaraq onu hər bir formada imzalamağa çağırış etməsi bu ölkənin əsl niyyəti barədə bir çox suallar yaradır.

Saziş layihəsinin imzalanması üçün Ermənistan, ilk növbədə, hazırda ölkəmizə qarşı ərazi iddialarına istinad edən konstitusiyasında müvafiq dəyişikliklər etməlidir".

## Ermənistan kommunikasiyaların açılması ilə bağlı öhdəliklərini yerinə yetirməlidir!

Ermənistan üçtərəfli bəyanatla üzərinə bir sıra öhdəliklər götürüb. Bu öhdəliklərdən biri də Azərbaycanın qərb hissəsi ilə blokada şəraitində olan Naxçıvan arasında kommunikasiya əlaqələrinin təmin edilməsidir. Sənədin 9-cu bəndində oxuyuruq: "Bölgədəki bütün iqtisadi və nəqliyyat əlaqələri bərpa edilir. Ermənistan Respublikası vətəndaşların, nəqliyyat vasitələrinin və yüklərin hər iki istiqamətdə maneəsiz hərəkətinin təşkili məqsədi ilə Azərbaycan Respublikasının qərb rayonları və Naxçıvan Muxtar Respublikası arasında nəqliyyat əlaqəsinin təhlükəsizliyinə zəmanət verir. Nəqliyyat əlaqəsi üzrə nəzarəti Rusiyanın Federal Təhlükəsizlik Xidmətinin Sərhəd Xidmətinin orqanları həyata keçirir".

Hər şey açıq-aydın yazılıb. Baş nazir isə forumda növbəti dəfə uydurma "Dünyanın kəsişməsi" təşəbbüsündən çıxış edib. İndi "Ermənistan kommunikasiyaların açılmasına hazırdır" deyən N.Paşinyan niyə bəyanatın altındakı imzasına hörmət etmək əvəzinə, sol əli ilə sağ qulağının dibini nişan verir? Məsuliyyətli dövlət olan Azərbaycan postmüharibə mərhələsində Zəngəzur Dəhlizinin yaradılması ilə bağlı ölkəmizin ərazisində müvafiq infrastrukturun qurulması istiqamətində intensiv işlər görür. Ancaq eyni sözləri Ermənistan barəsində demək mümkün deyil. Bu ölkə öhdəliyindən yayınmaqla bəhs olunan dəhlizin açılması istiqamətində hər hansı bir əməli addım atmır, eyni zamanda, absurd iddialar səsləndirir. "Azərbaycanın qərb bölgələrini Naxçıvan Muxtar Respublikası ilə birləşdirən kommunikasiyaların açılması məsələsi ilə bağlı Ermənistan yazılı təsbit olunmuş və imzalanmış öhdəliklərinin mövcud olduğunu bilsə də, onları son 4 ilə yaxın müddətdə yerinə yetirməyib. Hər iki ölkə ərazisində xarici özəl şirkətin prosesə cəlb olunması barədə fikirlərlə bağlı isə qeyd edək ki, Azərbaycan heç zaman öz ərazisində üçüncü tərəfin prosesə cəlb olunması barədə müzakirə aparmayıb. Əgər Ermənistan tərəfi həqiqətən də bölgədə kommunikasiyaların açılmasında maraqlıdırsa, üzərinə götürdüyü öhdəlikləri yerinə yetirməlidir", - deyə Ayxan Hacızadə bildirib.

*Mübariz ABDULLAYEV*

II yazı

# Zəngəzur dəhlizi layihəsinə qarşı olanlar...

2020-ci ilin noyabrında imzalanmış üçtərəfli Bəyanat II Qarabağ müharibəsini yekunlaşdırmaqla yanaşı, həm də regionda yeni siyasi reallıqları özündə əks etdirirdi. Belə ki, sözügedən bəyanatda Ermənistanın Azərbaycanın qərb bölgələri ilə Naxçıvan Muxtar Respublikası arasında nəqliyyat əlaqəsinə zəmanət verməsi də qeyd edilir. Bu, Ermənistanın Zəngəzur dəhlizinin açılmasına razılıq imzası kimi özünü ehtiva etməkdədir.

Amma zaman keçdikcə siyasi manipulyasiyalara əl atan İrəvan fərqli münasibət sərgiləyir, Zəngəzur dəhlizinin açılması prosesini ləngitməyə çalışır. Halbuki bölgədə bu kimi vacib və iqtisadi rentabelliyə malik dəhlizinin varlığı olduqca əsaslı üstünlüklər yaradır. Xüsusilə, illərdir "dalan dövlət" statusundan çıxa bilməyən Ermənistan bu dəhlizin açılması ilə qlobal bazara yol tapacaq, geniş iqtisadi əməkdaşlıq məkanının bir parçasına çevrilmə imkanı qazanacaq. Amma bəzi dövlətlərin təhriki ilə bu kimi vacib layihənin gerçəkləşməsini yubadan Ermənistan destruktiv fəaliyyətdən əl çəkmək istəmir.

## Üçtərəfli bəyanat İranı nədən narahat edir?

Maraqlıdır ki, Zəngəzur dəhlizinin açılmasına qarşı olan ölkələrdən biri də qonşu İran İslam Respublikasıdır. Mövqeyini məhz "özünəməxsus" şəkildə izah etməyə çalışan İran əsl mətləbdən yan qaçır - bu narazılığını bir sıra mətləblərlə pərdələməyə çalışır. Məsələn, İranın İrəvandakı səfiri Mehdi Sobhani Ermənistan Təhlükəsizlik Şurasının katibi Armen Qriqoryan ilə görüşündə İran İslam Respublikasının beynəlxalq sərhədlərin toxunulmazlığı, istənilən geosiyasi dəyişikliyə qarşı çıxması və qonşularının ərazi bütövlüyünü dəstəkləməsi ilə bağlı mövqeyini açıqlayıb.

Bir müddət öncə İranın xarici işlər naziri Abbas Əraqçi "X" səhifəsində bildirmişdi ki, regional sülh, təhlükəsizlik və sabitlik təkcə prioritet deyil, həm də ölkəsinin milli təhlükəsizliyinin sütunlarındandır: "Regional sülh, təhlükəsizlik və sabitlik təkcə prioritet deyil, milli təhlükəsizliyimizin sütunlarıdır. Şimaldan, cənubdan, şərqdən və ya qərbdən qonşularımızın ərazi bütövlüyünə hər hansı təhdid və ya sərhədlərin yenidən cızılması qəbuledilməzdir".

İranın son günlərdə bu mövqeyini dəfələrlə təkrarlamasının əsl səbəbi üçtərəfli Bəyanatın müddəalarının yenidən gündəmə gəlməsidir. Rusiya Prezidenti Vladimir Putinin Bakı səfəri zamanı 2020-2022-ci illərdə Rusiya, Azərbaycan prezidentləri və Ermənistanın baş naziri arasında əldə olunmuş məlum üçtərəfli razılaşmaları xatırlatması, Rusiyanın xarici işlər naziri Sergey Lavrovun Ermənistanın Zəngəzur dəhlizi ilə bağlı üçtərəfli sazişi sabotaj etməsi ilə bağlı bəyanatı Tehranın "qırmızı xətt" adlandırdığı mövqeyini təkrarlamasına səbəb olub. Düzdür, dövlət rəsmilərinin birbaşa dilə gətirməkdən yayındıqları əsl məqsəd digər siyasətçilər vasitəsi ilə "dövriyyəyə buraxılır". Məsələn, iranlı deputat Fədahüseyn Maleki Moskvanın "Azərbaycanı erməni keçid məntəqələri olmadan Naxçıvanla birləşdirmək üçün nəzərdə tutulan "Zəngəzur dəhlizi"nin yaradılmasını dəstəkləməsindən sonra Rusiyanın İrana qarşı ziddiyyətli siyasət yürütməsindən" şikayətlənib. Erməni mediasının bununla bağlı xəbərində bildirilib ki, Fədahüseyn Maleki "Tasnim" xəbər agentliyinə müsahibəsində deyib ki, İran Moskvanın Tehranla münasibətlərində paradoksal davranışlardan çəkinməsini gözləyir. "İran diplomatiyası Rusiya prezidentinin Zəngəzur dəhlizinə dəstək verən son mövqeyinə qəti cavab verəcək", - deyən deputat əlavə edib ki, İranın milli maraqları heç bir təhlükə ilə keçilə bilməyən qırmızı xətdir.






## Sərhəddə kim dayanacaq?

Vurğulandığı kimi, məhz Malekinin açıqlaması Tehranı "ələ verir" - iranlı deputat ölkəsinin Ermənistanla "sərhədlərinin" hayında deyil. Tehranın əsl "qırmızı xətti" üçtərəfli Bəyanatda nəqliyyat nəzarətinin Rusiya Federasiyası Federal Təhlükəsizlik Xidmətinin Sərhəd Xidmətinin orqanları tərəfindən həyata keçirilməsi məsələsinin yer almasıdır.

Fikirləşmək olar ki, İran ən azından strateji əməkdaş saydığı Rusiyanın sərhədə gəlmə ehtimalından niyə bu qədər narahatdır? Sərhəddə Rusiya nəzarətinin olmasına qarşı İran niyə bu qədər dirəniş göstərir?

Ola bilsin ki, İranın dilindən salmadığı "qırmızı xətt" "prinsipi" qeyri-siyasi əsaslara malikdir. Yəni burada söhbət hansısa ticari maraqdan gedir - Rusiyanın həmin əraziləri gəlişi İranın bir sıra ticari maraqları ilə üst-üstə düşmür.

## Tehran üzünü Parisə tutarsa...

Bəzi siyasi ekspertlər isə bunu İranın bölgədəki təsir dairəsinin əldən çıxmasının qarşısını almaq üçün cəhd kimi dəyərləndirirlər. Başqa sözlə, hazırda Ermənistan bölgədə daha çox İranın "sözünə baxır". Tehran İrəvan üzərində həm iqtisadi, həm də regional təsirini azaltmamaq üçün Rusiya və Azərbaycanın, eyni zamanda Türkiyənin aktiv rol alacağı dəhlizlə bağlı fərqli mövqe sərgiləyir. Bəzi siyasi analitiklər hətta Tehranın bundan istifadə edərək Qərblə yaxınlaşma variantını da istisna etmir. Onların fikrincə, İran daha çox Fransaya fokuslanaraq anti-Zəngəzur "koalisiyasının" direktivləri üzərində çalışır. Bu isə, regional proseslərə mənfi təsir göstərdiyi kimi, İranın özü üçün də neqativ bir haldır.

Çünki Qərb bütün hallarda İranla Cənubi Qafqazdakı hətta "prisipial yaxınlaşmasını" belə digər regionlar üçün proyeksiya etməyəcək - yəni, bu "əməkdaşlıq" digər bölgələrdəki, xüsusilə Yaxın və Orta Şərqdəki qarşıdurmaları ikinci plana keçirməyəcək.

## Rusiyanın bəyanatlarını sabotaj etməklə...

Və ən nəhayət, İran bölgədə özünün ən mühüm tərəfdaşı saydığı Rusiyanın maraqlarını zərbə altında qoymaqdadır. Belə demək mümkündürsə, açılması üçün bütün beynəlxalq resursların işə salındığı Zəngəzur dəhlizinə qarşı radikal və aqressiv mövqe Tehran üçün başucalığı gətirməyəcək. Xüsusilə, açıq və ya dolayı kontekstdə anti-Rusiya bəyanatları, sərhəd məsələsini bəhanə etməklə Moskvanın bəyanatlarını sabotaj etmək yeni dövr üçün siyasi-iqtisadi əməkdaşlığı üçün qaranlıq zəmin yarada bilər...

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

Məqalə “Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi”nin maliyyə dəstəyi ilə “İşğaldan azad olunmuş ərazilərə “Böyük Qayıdış” istiqaməti üzrə hazırlanmışdır

# “Böyük Qayıdış”ın uğurlu addımları!

## Quruculuq işləri öz axarı ilə davam edir...

İkinci Qarabağ müharibəsinin başa çatmasından sonra, işğaldan azad olunmuş ərazilərdə genişmiqyaslı bərpa və infrastruktur quruculuğu işlərinə başlanılması dövlətimizin gücünü bir daha sübut etdi. Azərbaycan erməni vandalları tərəfindən dağıdılaraq yerlə-yeksan edilən şəhər və kəndlərimizdən didərgin düşən qaçqınların öz doğma yurd-yuvalarına qayıtmalarını tezliklə təmin etmək niyyətindədir. Xüsusilə vurğulamaq lazımdır ki, Prezidentin rəhbərliyilə Qarabağda həyata keçirilən bərpa və yenidən qurulma işləri Azərbaycanın öz gücü, milli resursları və milli imkanları hesabına həyata keçirilir.

“Böyük Qayıdış” çərçivəsində həyata keçirilən ictimai rəy sorğuları əsasında geri qayıdacaq əhalinin hansı sahələrdə işlə təmin edilməsinin planlaşdırılması da vacibdir. Bundan başqa, qarşımıza qoyulmuş hədəflərin reallaşdırılmasında “Böyük Qayıdış”ı təmin edən infrastrukturun yaradılması ön plana çəkilib və beynəlxalq təcrübəyə istinad olunub. Eyni zamanda işğaldan azad edilmiş ərazilərin sosial-iqtisadi potensialı və dünya iqtisadiyyatının müasir çağırışları nəzərə alınıb.

**Qarabağımızı tezliklə cənnətə çevirəcəyik**

Mövzu barədə “Yeni Azərbaycan”a danışan iqtisadçı Fuad İbrahimov bildirib ki, dövlət başçımız çıxışlarında dəfələrlə qeyd etmişdi ki, biz doğma Qarabağımızı tezliklə cənnətə çevirəcəyik: “Bu gün işğaldan azad edilmiş ərazilərdə görülən işlər, həyata keçirilən tədbirlər bunu deməyə əsas verir. Həmin ərazilərdə dayanıqlı məskunlaşma üçün müasir həyatın təmin edilməsi, bütün sahələrdə quruculuq, bərpa və abadlıq işlərinin aparılması, habelə təhlükəsiz yaşayışın, səmərəli fəaliyyətin və rifahın davamlı artmasının dəstəklənməsi də əsas məqsədlərdəndir. Dövlət başçısının azad edilmiş rayonlarımızla bağlı, oraya qayıdışın mümkünlüyü ilə əlaqədar əhəmiyyətli qərarları xalqımız tərəfindən dəstəklənir. Prezidentin sərəncamı ilə yaradılmış Qarabağ Dirçəliş Fondu da bu məqsədlərə xidmət edir. Məlumdur ki, erməni qəsbkarları tərəfindən otuz ilə yaxın bir müddət ərzində işğal olunmuş ərazilərimizin maddi və mədəni sərvətləri talan edilib. İşğaldan azad edilmiş ərazilərin bərpası və yenidən həyata qaytarılması Azərbaycan dövlətinin qarşısında duran əsas vəzifələrdən biridir”.




**İlk mərhələ: minaların təmizlənməsi**

İqtisadçı qeyd edib ki, “Böyük Qayıdış”a nail olmaq üçün əsas iş görülüb. Azərbaycan əsgəri öz işinin öhdəsindən məharətlə gəlib və bundan sonra əsas məsələ ərazilərin minalardan təmizlənməsi, regionda tam təhlükəsiz vəziyyətin bərqərar olunmasıdır: “Azərbaycan dövlət olaraq bu işin öhdəsindən gəlməyə başlayıb. Baxmayaraq ki, mənfur Ermənistan mina xəritələrinin verilməsi ilə bağlı prosesi uzatmağa və nəticədə soydaşlarımızın işğaldan azad olunmuş əzəli torpaqlarımıza qayıdışını ləngitməyə cəhd göstərirdi. Bununla belə, Azərbaycanın yürütdüyü xarici siyasətdə uğurlu nəticə əldə olunur”.

**Azad edilmiş ərazilərin siması sürətlə dəyişir**

İqtisadçı bildirib ki, azad edilmiş rayonlarda böyük sürətlə müasir tələblərə cavab verən, keyfiyyətli yaşayış məskənləri, məntəqələri yaradılır: “Diqqəti çəkən başlıca məqam ondan ibarətdir ki, bu yaşayış məskənləri ağıllı şəhər, ağıllı kənd konsepsiyası əsasında yaradılır. Bu da orada məskunlaşan soydaşlarımızın daha rahat, keyfiyyətli həyat şəraitinin təmin olunmasını şərtləndirir. Biz torpaqlarımızı işğaldan azad etdikdən sonra hər il həmin ərazilərin bərpa və quruculuğu işlərinə dövlət büdcəsindən daha artıq vəsait ayrıldığını görürük. Ayrıca olaraq nəzərə almalıyıq ki, Azərbaycanın 2030-cu ilədək sosial-iqtisadi inkişafa dair milli prioritetləri içərisində işğaldan azad olunmuş ərazilərimizdə soydaşlarımızın məskunlaşdırılmasından ibarətdir. Təbii ki, effektiv məskunlaşdırma üçün böyük maliyyə və xüsusi diqqət tələb olunur. Dövlətimiz bu istiqamətdə bütün addımları atır, sürətlə həmin ərazilərin siması dəyişir”.

**Dönüşün uğurlu simvolu...**

F.İbrahimovun sözlərinə görə, ölkə başçısının tapşırıq və göstərişlərinə əsasən, işğaldan azad olunmuş ərazilərdə 7 yolun tikintisi başa çatdırılaraq istismara verilib: “27 yol layihəsi üzrə işlər, eyni zamanda uzunluğu 47,1 km olan Bərdə-Ağdam və uzunluğu 110,4 km olan Horadiz-Ağbənd dəmir yolu xətlərinin tikintisi davam etdirilir. Füzulidən Şuşaya çəkilən ilk yol dönüşün uğurlu simvoludur. Hazırda dövlət büdcəsindən ayrılan vəsait hesabına işğaldan azad olunan ərazilərdə 15 avtomobil yolunun tikintisi həyata keçirilir. Bütün avtomobil yolu layihələrinin 2025-ci ilədək yekunlaşdırılması nəzərdə tutulur”.

*Yeganə BAYRAMOVA*

# Tədrisin keyfiyyəti və müəllimlərin sosial rifahı naminə...

## Sertifikatlaşdırma peşəkar kadr institutunun formalaşdırılmasını təşviq edir

Dövlət ümumi təhsil müəssisələrində çalışan müəllimlərin təkrar sertifikatlaşdırma prosesinin müsahibə mərhələsinə başlanılıb. Təhsil İnstitutunun məlumatına görə, sertifikatlaşdırmanın müsahibə mərhələsində azı 20 bal toplamış təhsilverənlər həmin mərhələdən keçmiş hesab ediləcəklər. Test imtahanlarında keçid balı toplayan şəxslərin əməkhaqqına 10 faiz, 51 bal və daha yüksək nəticə əldə etmiş şəxslərin əməkhaqqına 35 faiz əlavə olunacaq. Əlavələr müsahibə mərhələsində uğur qazanan müəllimlərin əməkhaqqına tətbiq olunacaq.

Müəllimlərin sertifikasiyası həm təhsil islahatları, həm kadr bankının bilik və səriştəsinin artırılması, həm də təhsildə sosialyönümlülük baxımından mühüm əhəmiyyət kəsb edir.

### Təhsil islahatlarının ayrılmaz tərkib hissəsi...

İlk öncə, təhsildə islahatların ayrılmaz tərkib hissəsi kimi sertifikatlaşdırmanın əhəmiyyətini qeyd etmək lazımdır. Təhsil sürətlə inkişaf edən müasir dünya çağırışları, elmi inovasiyaların inkişafı, rəqəmsallaşmanın idaretmədə geniş tətbiqi fonunda pedaqoji kadr institutunun da daim optimallaşmasını, yeni reallıqlara uyğun bilik və bacarıqları mənimsəməsini zəruri edir. Dünyada bir çox inkişaf etmiş və inkişafda olan ölkələrin təhsil sisteminə baxdıqda müəllim peşəkarlığının yoxlanılması ən vacib məsələdir. Bu da təhsilin inkişafı və mövcud vəziyyətin müəyyən edilməsi, dövlət standartlarının keyfiyyətlə həyata keçirilməsi üçün əsas şərtdir. Bu baxımdan Azərbaycanda dövlət ümumi təhsil müəssisələrində müəllimlərin davamlı olaraq yenilikləri mənimsəməsi və həmin bilik və təcrübənin keyfiyyətini, peşəkarlığını ölçən mexanizmlərin tətbiqi olduqca vacibdir. Əvvəllər bu proses attestasiya formasında keçirilirdi və əslində kadrların təhsildəki yenilikləri öyrənməsini və müasir təhsil meyarlarına hazırlıq səviyyələrini müəyyən etmək üçün həmin metod özünü doğrultmadı. 2014-2017-ci ildə dövlət ümumi təhsil məktəblərində keçirilən diaqnostik qiymətləndirmə müsbət layihə kimi xarakterizə oluna bilər. Bu metod müəllimlərin təhsilə yanbaşmasını, tədris prosesindəki fəaliyyətini, bilikləri şagirdlərə öyrətmə peşəkarlığını və digər təhsil keyfiyyətlərini ölçmək baxımından səmərəli rol oynadı. Hətta diaqnostik qiymətləndirməni müəllimlərin sertifikasiyasına hazırlıq üçün keçid mərhələsi kimi də dəyərləndirmək mümkündür.

Əsas məqsədi hazırda dövlət ümumi təhsil müəssisələrində çalışan müəllimlərin peşə yararlılığını və peşəkarlıq səviyyəsini ölçməkdən ibarət olan sertifikatlaşdırmaya 2022-ci ildən start verilib və ilk olaraq ibtidai sinif müəllimlərini əhatə edib. Sonrakı ildə tədris dili və ədəbiyyat, xarici dil və riyaziyyat müəllimlərini də əhatə etməklə böyük bir prosesə çevrilən sertifikatlaşmanın 2026-cı ilə qədər bütün fənnlər üzrə başa çatması nəzərdə tutulur.



Ölkəmizin “2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası”nın strateji hədəflərindən biri məhz sertifikatlaşdırmanın davamlılığıdır. Bu, müəllim hazırlığının inkişafı və onların səriştəsinin artırılması istiqamətində mühüm yer tutur. Təhsil siyasətində sertifikatlaşdırmanın əhatə dairəsinin genişləndirilməsi və digər təhsil pillələrində də tətbiqi planlaşdırılır.

### Bilik və əməyin qiymətləndirilməsinin dürüst və şəffaf yolu..

Sertifikatlaşdırma təhsilin müasir keyfiyyətinin yüksəldilməsini təmin edən proses olmaqla, həm müəllim ordusunun motivasiyasına, əməyinin dəyərinin daha yaxşı qiymətləndirilməsinə imkan verən sosial məzmunlu islahatdır. Sertifikatlaşma sayəsində daha yaxşı nəticə qazanan müəllimlərin əmək haqları daha çox artır. Belə ki, sertifikatlaşdırmadan uğurla keçən, yəni 30 baldan yuxarı nəticə göstərən bütün müəllimlərin əmək haqqına 10 faiz artım şamil olunur. 51 baldan yüksək nəticə göstərən müəllimlərin əməkhaqqına isə 35 faiz artım əlavə olunur. 35 faiz artım orta hesabla 700-750 manat maaş alan müəllimin əməkhaqqının təxminən 250-300 manat artması deməkdir. Bu, olduqca yüksək rəqəmdir və Azərbaycanın dövlət sektorunda çalışan digər təşkilat və müəssisələrdəki kadrların əməkhaqqısına tətbiq edilən artımlardan 2 dəfədən də çox faiz artımıdır. Digər dövlət sektorlarında çalışan işçilərin maddi motivasiyasını təşviq edən belə bir sistem demək olar ki, yoxdur. Ona görə də, sertifikatlaşdırmanın genişməzmunlu islahat proqramı kimi təhsil sektorunda təşviqedici sosial əhəmiyyəti daha böyük əhəmiyyət daşıyır.

Qeyd edək ki, 2022-ci ildə sertifikatlaşdırmadan uğurla keçən 3163 müəllimin əməkhaqqına 35 faiz, 5624 müəllimin əməkhaqqı isə 10 faiz artırılıb. 2023-cü ildə təşkil olunan sertifikatlaşdırma prosesində isə 29951 ibtidai sinif, Azərbaycan dili və ədəbiyyat müəllimi iştirak edib və prosesdə 97,7 faiz davamiyyət qeydə alınıb. Sertifikatlaşdırmadan keçmiş 5246 təhsilverənin vəzifə maaşına 35 faiz, 17914 müəllimin isə 10 faiz artım tətbiq olunub.

2024-cü ildə təxminən 15 mindən artıq müəllimin də uğurlu nəticə göstərməsini nəzərə alsaq son 3 ildə sertifikatlaşdırmadan keçmiş 50 minə yaxın təhsil işçisinin əməkhaqqının 10-35 faiz arasında artırıldığını görə bilərik. Bu baxımdan sertifikasiyanı həm də sosial rifahın yüksəlməsinə imkan yaradan bir mərhələ də hesab etmək mümkündür və 2026-cı ilə qədər müəllimlərin əmək fəaliyyətinin qiymətləndirilməsi, yəni tədrisdəki nailiyyətlərinə görə, əməyinin dəyərinin qiymətləndiriılməsi də yekunlaşmış olacaq.

### Sertifikatlaşdırma məsuliyyəti artırır, karyera üçün yol açır...

Müəllimlərin sertifikasiyası həm də pedaqoji kadr ordusunun məsuliyyətini artırır, davamlı olaraq onların öz üzərində çalışmalarını, daim yeniliklərə açıq olmasını təşviq edir, təhsildə baş verən prosesləri izləməsini vacib amilə çevirir. Müəllimlər davamlı şəkildə peşəkar inkişafa maraq və motivasiya olunaraq tədris etdikləri fənnlərə adi tədris vasitəsi kimi yanaşmır, həmin fənn üzrə aktual olan təhsil tədqiqatlarını, müasir metodologiyaları, innovativ yenilikləri də öyrənməyə məsuliyyətlə yanaşırlar.

Müəllimin qazandığı bilik və bacarıqlar sayəsində tədrisin də keyfiyyəti artır, təhsilalanların hazırlıq səviyyəsi yaxşılaşır. Nəticədə bu proses müəllimlərin yeni təhsil texnologiyalarına və strategiyalarına uyğunlaşmasına şərait yaradır, onları bütün tədris həyatları ömür boyu öyrənmə mədəniyyətini inkişaf etdirir. Təhsil və tədrisdə peşəkar öyrənmə pedaqogiyası formalaşır. Bu proses ümumilikdə, təhsilin keyfiyyətinin yüksəldilməsində, pedaqoq-müəllimlər arasında peşəkar yüksəlişin dəstəklənməsində və şagirdlərin nəticələrinin yaxşılaşdırılmasında mühüm rol oynayır.

Sertifikasiyadan uğurla keçən müəllimlərin digər bir motivasiyasını təmin edən faktor onların rəhbər vəzifələrə irəli çəkilməsidir. Çünki ümumi təhsil müəssisələrinə direktorların seçimi prosesində müsahibə mərhələsində sertifikatlaşdırma nəticələrinə diqqət yetirilir. Bu baxımdan sertifikatlaşdırma həm də müəllimlərin karyera irəliləyişində ən vacib faktor kimi rolunu artırır.

*E.CƏFƏRLİ*

# Qərbdən uzanan “dirijor çubuğu”...

## Rediküllərə Avropadan yeni sifarişlər gəlib

2020-ci ildə Ermənistanın məğlubiyyəti ilə bitmiş II Qarabağ müharibəsi bəzi xarici ermənipərəst dairələrin fərqli adlar altında ölkəmizə qarşı kampaniyalar təşkil etməsini, fərqli spektrlərdən yalan və böhtan fikirlər irəli sürməsini “şərtləndirdi”. Maraqlıdır ki, ötən 4 ildə Azərbaycanın bütün sahələr üzrə apardığı uğurlu siyasət xüsusilə Qərb tərəfindən gözardı edilir - Avropanın “demokratik təsisat” adlanan bəzi qurumları daha da uzağa gedərək ölkəmizdə baş verən hadisələri özünəməxsus donda qiymətləndirir, erməni maraqlarından irəli gələn baxış bucağından dəyərləndirirlər. Təsadüfi deyil ki, 2024-cü ildə ölkəmizdə baş tutan iki seçki prosesi eyni qurumlar tərəfindən böhtana məruz qalır, hədəfə alınır. Sentyabrın 1-də baş tutmuş növbədənkənar parlament seçkiləri ilə bağlı fərqli standartlar üzrə yanaşma sergiləyən Avropa qurumları əslində Azərbaycanın yaratdığı yeni siyasi reallıqları, geostrateji situasiyanı, ən nəhayət bölgənin separatizmdən xilas edilməsini həzm edə bilmirlər. Nəzərə alsaq ki, cəmisi 2 aydan sonra ölkəmizdə daha böyük və mühüm beynəlxalq tədbir - COP29 baş tutacaq, ermənipərəst dairələrin bütün “güclərini” səfərbər edərək üzərimizə gəlməsi gözləniləndir...

### COP29 hədəfdə...

Əslində bu məqam özünü çox gözlətməyib - artıq ermənipərəst maraqların xidmətində dayanan “milli xəyanətkarlar” sifariş əsasında “işlərini görməyə başlayıblar”. Qərbin vaxtilə “vətəndaş cəmiyyəti nümayəndəsi”, “media təmsilçisi” adı altında gizlətməyə çalışdığı bəzi “ocaqların” ifşasından sonra, deyəsən ənənəvi “xidməti personaldan” istifadə qərarı verilib. Bunu, sosial şəbəkələrdə yayılan bəzi məqamlar da təsdiqləyir.

Məsələn, fəaliyyəti qeyri-qanuni olan, heç bir hüquqa söykənməyən “Milli şura”nın, xəyanətkar fəaliyyəti bütünlüklə ortada olan AXCP-nin və bu kimi destruktiv qüvvələrin bir ağızdan eyni tezis üzərindən “danışması” onu göstərir ki, Avropadan uzanan “dirijor çubuğu” yenidən fəaliyyətdədir. Zəifliyini, elektoratının olmamasını gizlətmək üçün iştirak etmədiyi parlament seçkiləri haqda “mülahizələr” yürüdən, Qərbin ermənipərəst kəsiminin direktivlərini birbəbir təkrarlayan rediküllərin əsas hədəfinin seçki olmadığı birinci andaca aşkara çıxır - onlar seçki bəhanəsi üzərindən qarşıdakı COP29-u açıq hədəfə gətirirlər. Sığındıqları ənənəvi və dəyişməyən “pərdə parametrləri” - demokratiya, insan hüquqları və bu kimi Qərbin “yumşaq güc aləti” statusunu almış dəyərləri əllərində yalançı bayrağa çevirərək ölkəmizin bu böyük tədbirə ev sahibliyi etməsinə qarşı kampaniya təşkil edirlər. Əlbəttə ki, bu “hücumlar” da iflasa məhkumdur - necə ki, siyasi möhtəkirlikləri, siyasi xainlikləri aşkara çıxıb, xalq onların əsl kimliyini tanıyır, bu dəfə də həmin şəxslər çirkin niyyətlərinin altında əziləcəklər.

### “Mühacir” kod adlı xəyanətkarlar “iş başında”...

Budəfəki kampaniyanı digərlərindən fərqləndirən bir cəhət isə bəzi xaricdə yaşayan “mühacir” statusu “qazanmış” xainlərin də prosesə “cəlb olunmasıdır”. Diqqət yetirsək, xüsusilə Fransada yaşayan beləlri son dövrdə “fəallaşdırılıblar”. Bəzilərinin sosial şəbəkədə yenidən “zühur etmələri”, xalqın və dövlətin maraqlarına qarşı təbliğat aparan internet kanallarında “peyda olmaları”, ən əsası isə onların da eyni fikirləri, hətta eyni cümlələri istifadə etmələri göstərir ki, bu şəxslər məqsədli şəkildə “görəvləndiriliblər”. Onlar indidən başlayaraq COP29-a kimi ölkənin imicinə zərbə vurmaq, Azərbaycandakı demokratik mühitə xələl gətirmək, yüksək təminatla qorunan söz azadlığı və insan hüquqları prinsiplərinin “pozulması” kimi yalan və böhtanları dövriyyəyə buraxmaq üçün fəallaşıblar. Əlbəttə ki, bunu həm “mühacirət” etdikləri ölkələrdə lüks həyatı yaşamaq, həm də qeyri-qanuni fəaliyyətlərini davam etdirmək üçün edirlər.

Onların da fəaliyyəti xalqımıza bütünlüklə aydındır - belələrinin pul üçün nələr etdikləri, hətta müharibə dövründə erməniləri dəstəkləmələri, Paşinyanı “demokrat” adlandırmaları, milli dəyərlərimizə qarşı hörmətsizlik etmələri yaddan çıxmayıb. Həmin şəxslərin budəfəki yalan kampaniyasının da nəticəsi olmayacaq - çünki həm Azərbaycan xalqı, həm də dünya ictimaiyyəti dövlətimizin apardığı uğurlu siyasəti görür və dəstəkləyir...

*MƏNSUR*

# Neftlə bağlı pessimist proqnozlar

## "Qara qızıl"ın qiyməti 15 faizdən çox ucuzlaşıb

**Son günlər dünya bazarında neftin qiyməti ucuzlaşmaqda davam edir. Avqust ayının ikinci yarısında və sentyabr ayının ilk həftəsində qlobal birjalarda neftin satış qiymətlərində enmələr müşahidə edilib. Sentyabrın ilk ongünlüyündə neftin dünya bazarlarında orta satış qiyməti 70-79 dollar təşkil edib. Ümumilikdə, son 20 gündə qiymətlər 15 faiz ucuzlaşaraq orta qiymət üzrə 75 dollara düşüb. Sentyabrın 8-də London qitələrarası birjasında keçirilən ticarət əməliyyatlarında "Brent" markalı neftin 1 barelinin qiyməti 72 dollar təşkil edib. Hazırda dünya bazarında Azərbaycanın "Azeri Light" markalı neftinin bir barelinin qiyməti 78-79 dollara bərabərdir.**

### Rusiya amili, ABŞ-dakı seçkiöncəsi qeyri-müəyyənliklər...

Neftin qiymətlərində baş verən dalğalanmalar neft satışı ilə məşğul olan treyderlərdə də panika yaratmaqda və onların pessimist proqnozlar irəli sürməsinə səbəb olmaqdadır. "Trafigura" treyderinin neft departamentinin rəhbəri Ben Lukok deyib ki, "Brent" neftinin qiyməti yaxın vaxtlarda bir barel üçün 70 dollardan da aşağı düşə bilər. "Gunvor" treyderinin rəhbəri Torbjorn Tornqvist də mənfi proqnozla çıxış edib. "Energy Pathways" şirkətindən Jeff Curry müəyyən qədər optimist fikirdədir. O, Çin iqtisadiyyatındakı problemlərin, eləcə də ABŞ-da seçkiöncəsi hökumətin iqtisadi qərarları və yaranmış qeyri-müəyyənliklərin neftin qiymətlərinə təsir etdiyini, ancaq bu prosesin müvəqqəti xarakter daşıdığını vurğulayıb.

Qeyd edək ki, neft qiymətləri iyulun ortalarında qlobal tələb və OPEC+ ölkələrinin təklifinin artması ilə bağlı narahatlıqlar səbəbindən düşməyə başlayıb, xam neftin qiymətinin aşağı düşməsində Rusiyanın dünya istehlakçılarına daha ucuz - 50-60 dollardan neft tədarükləri həyata keçirməsi, eləcə də ABŞ-nin qlobal bazara daha çox karbohidrogen ehtiyatları nəql etməsi də təsir göstərib. Baş verənləri nəzərə alaraq "OPEC" ölkələri neftin hasilatını artırmaq niyyətində deyil və neftin indiki sabit hasilatın davam etdirilməsində qərarlıdır. "OPEC"lə yanaşı, digər neft tədarükçüləri alyansı da hasilatın artırılmasının əleyhinədir. Bir neçə gün əvvəl "OPEC+" ölkələri hasilatın gündəlik 2,2 milyon barel səviyyəsində qalmasını dəstəkləyən qərar qəbul edib. 2024-cü ilin sonuna qədər qüvvədə olacaq qərarın bazardakı proseslərdən asılı olaraq yenidən uzadılması istisna deyil.

### Enerji agentliklərinin proqnozları necədir?

Beynəlxalq "Rystad Energy" analitikləri hesab edirlər ki, neft hasilatının və tədarükünün indiki mövcud şəraitində neft qiymətləri 2024-cü ildə bir barel üçün 80 dollar ətrafında qalacaq. ABŞ-ın Enerji Agentliyi də 2024-cü il üçün "Brent" markalı neftin qiymət proqnozunun 78-82 dollar olacağını təxmin edir. "Morgan Stanley" agentliyi isə "Brent" markalı neftin qiyməti ilə proqnozu dördüncü rübdə orta hesabla 75-77 dollar civarında qiymətləndirir. "Goldman Sachs Group Inc" və "Citigroup Inc" isə neft bazarında 2024-cü ildə qiymətlərin yekun orta qiymətinin 70-76 dollar olacağını bildirir.

Beynəlxalq agentliklərin və enerji mütəxəssislərinin qənaətinə görə, neftin ucuzlaşması və 60 dollardan aşağı düşməsi ehtimalı inandırıcı görünmür. Onlar hesab edirlər ki, hazırda dünyada və regionda baş verən geosiyasi amillər, o cümlədən ABŞ-da prezident seçkiləri ərəfəsində siyasi hərarətin artması, Bayden hökumətinin investisiya və məşğulluq proqramlarındakı problemlər neftin qiymətinə təsir edir. Baş verənləri izləyən qlobal investorlar ABŞ-nin əsas makroiqtisadi göstəriciləri, xüsusilə də məşğulluq məlumatlarını diqqətlə izləyərək ehtiyatlı davranırlar. Seçkilərdən sonra bazardakı gözləmələr də aradan qalxacaq və investorların öz qərarlarını verəcəyi şübhəsizdir. Xüsusilə də güman olunur ki, Trampın seçkidə qalib gələcəyi halda Amerikada iqtisadi aktivlik sürətlənəcək, məşğulluq proqramlarına sərmayələr artacaq və neft bazarında da canlanma müşahidə ediləcək. Digər tərəfdən, ABŞ-də ehtiyatların azalması dünya neft bazarında əvvəlki həcmlərdə yanacaq ixracını təmin etməyə imkan vermir, hazırda bu ölkə qlobal tədarükü maksimum səviyyədə çatdırmağa çalışsa da, ehtiyat rezervlərin davamlılığının rentabelli olacağı sual altındadır. Ona görə də, bu amil də neftin yenidən artacağına dair ehtimalları möhkəmləndirir.



### Neftin ucuzlaşması Azərbaycana necə təsir göstərə bilər?

Hazırda Azərbaycanda valyutaya olan tələbin əhəmiyyətli hissəsi Dövlət Neft Fondu tərəfindən ödənilir. Neft Fondu mövcud aktivləri hesabına illik orta hesabla 12 milyard manatlıq transferti həyata keçirmək imkanına malikdir. Bununla yanaşı, neftin qiyməti valyuta bazarına həm iqtisadi, həm də psixoloji təsir göstərir. "Brent" markalı neftin mövcud qiyməti valyuta bazarındakı tarazlıq üçün hələlik təhdid yaratmasa da, növbəti dövrdə "qara qızılın" dəyərinin necə dəyişməsi müəyyən təsirlərə malik ola bilər. Amma Azərbaycanda, hələ ki, üzən məzənnə rejiminə keçirilməyib. Mərkəzi Bank prosesə birbaşa intervensiya etmək imkanlarını qoruyub saxlayır. Ona görə də neft bazarında dəyişikliklər fonunda manatın məzənnəsinin necə dəyişəcəyini gözləmək də düzgün olmazdı. Həmçinin Azərbaycanda dollara olan tələb kritik həddə deyil, hətta Neft Fondunun və Mərkəzi Bankın gündəlik hərraca çıxardığı dollar kütləsi tələbi tam ödəyir. Ona görə də manata kəskin təzyiqlərin olacağı gözlənilmir.

Ümumiyyətlə, son 2 ildə Azərbaycanda neftdən əldə edilən gəlirlərin həcmi tədricən azalmağa doğru gedir. Bu proses 2024-cü ilin yanvar- iyul aylarında da özünü göstərib. Bu dövrdə Azərbaycandan xarici ölkələrə 9 milyard 226 milyon dollar dəyərində 14 milyon 696 min ton neft ixrac olunub. Neft ixracından əldə edilmiş ötən ilin eyni dövrü ilə müqayisədə dəyər ifadəsilə 218 milyon 864 dollar və ya 2,3 faiz, miqdar ifadəsilə 844,2 min ton və ya 5,4 faiz aşağı düşüb. Xatırladaq ki, 2023-cü ilin 7 ayında Azərbaycandan 9 milyard 445 milyon dollar dəyərində 15 milyon 540 min ton neft ixrac olunmuşdu.

Ümumiyyətlə, 2024-cü ildən sonrakı dövrlərdə büdcədə neft gəlirlərinin azalması istisna deyil, ancaq digər mənbələr hesabına neft boşluğunu qeyri-neft sahələri dolduracaq. Bu tendensiya ümumi daxili məhsulun (ÜDM) strukturunda da neft-qaz sektorunun payının azalmasına səbəb olacaq. Belə ki, ÜDM-də qeyri-neft gəlirlərinin 2024-cü ildə 84,2 milyard manat və ya 71,1 faiz təşkil edəcəyi gözlənilir. 2027-ci ildə isə bu rəqəmin 106,8 milyard manat və ya 78,7 faizə çatacağı proqnozlaşdırılır. Neft-qaz ÜDM-in payı isə cəmi 21,3 faiz təşkil edəcək.

### Neft-qaz gəlirlərinin yerini doldura biləcək mənbələr varmı?

İqtisadi resursların təhlili göstərir ki, neft gəlirlərini əvəz edəcək güclü potensiallar mövcuddur. Kənd təsərrüfatı, ticarət, xidmət, turizm, tikinti sektorlarında kifayət qədər yığım mənbələri var ki, hələ də dövriyyədən kənarda qalmaqdadır. Bu sahələrdə yığımları artırmaqla ən azı 4-5 milyard yığım mənbələrini təmin etmək mümkündür. Bundan başqa, əsas mənbələrdən biri kimi işğaldan azad edilmiş ərazilərin ölkə iqtisadiyyatına reinteqrasiyası da mühüm rol oynaya bilər. Bu bölgə sənaye və kənd təsərrüfatı üçün dayanıqlı imkanlara malikdir. Vaxtilə bu bölgə ölkə üzrə kənd təsərrüfatı məhsulunun 20 faizini təmin edib. Bu, indiki dəyərlə 2 milyard manat həcmində ÜDM deməkdir. Bundan başqa, Qarabağ və Şərqi-Zəngəzur iqtisadi rayonları qızıl, sənaye, dağ turizmi, ekoturizm, müalicəvi turizm və mədəni turizm üçün güclü potensiala malikdir ki, bu da əlavə olaraq 3-4 milyard dollar həcmində ÜDM deməkdir. Yəni neft-qaz gəlirlərinin yerini dolduracaq dayanıqlı və güclü potensiallar mövcuddur ki, onları iqtisadi dövriyyəyə cəlb etmək lazımdır. Hökumət ortamüddətli dövrdə həmin resursları qeyri-neft sektorunun əsas aparıcı gəlir mənbələrindən hesab edir və bu məqsədlə həmin iqtisadi gücün hərəkətə gətirilməsi üçün yol xəritəsi hazırlanır.

*ELBRUS CƏFƏRLİ*

# Avropaya giriş "yadqitəlilər" üçün çətinləşir

## Elektron giriş və çıxış sisteminin əsl mahiyyəti nədir?

Qlobal kataklizmlər dalğasının Avropaya "çatması" köhnə qitə üçün "SOS" xəbərdarlığına çevrilib. İki ildən artıqdır qitənin mərkəzində gedən qanlı müharibə bu və ya digər şəkildə regionun bütün ölkələrinə sirayət edir - bütün sahələr üzrə müşahidə olunan krizislər turizmə də təsirsiz ötüşmür. Eyni zamanda, baş verənlər turizmin inkişafı üçün ən vacib şərtə çevrilən təhlükəsizlik məsələsini də sual altına alıb. Bəli, Qərb üzdə qeyri-qanuni miqrasiyaya qarşı mübarizə tədbirləri görsə də, bu tədbirlərin alt qatında həm də təhlükəsizlik elementləri özünü göstərir. Məsələn, Aİ ölkələrinə giriş-çıxışla bağlı yeni qaydaların təsbit olunması kimi...

## Köhnə qitə terror təhlükəsinin qarşısını alır

### 2 ildir təxirə salınırdı - yenə təxirə düşə bilər...

Belə ki, noyabrın 10-dan etibarən Avropa İttifaqı (Aİ) ölkələrindən olmayan səyahətçilərin Şengen zonası Aİ-yə giriş və çıxışlarını elektron şəkildə qeyd etmək üçün nəzərdə tutulmuş Giriş/Çıxış Sistemi (EES) tətbiq ediləcək. Sistemin tətbiqi öncə oktyabrın 6-na təyin edilsə də, müəyyən səbəblərdən bir ay gecikəcək. Britaniyanın The Independent qəzetinə görə, hətta tarix daha bir həftə, noyabrın 17-nə qədər təxirə salına bilər. Amma bu da dəqiq tarix deyil. Belə ki, Avropa Komissiyasının nümayəndəsi Kristian Viqand məsələ ilə bağlı mediaya açıqlamasında bildirib ki, yeni İT arxitekturasının tətbiqi üçün yol xəritəsi EES sisteminin 2024-cü ilin payızında və ETIAS-ın (vizasız səyahət edənlər üçün Aİ-yə giriş icazəsi) 2025-ci ilin yazında istifadəyə hazır olacağını nəzərdə tutur. "Dəqiq tarix Avropa Komissiyası tərəfindən müəyyən ediləcək və EES-in tətbiqinə başlamazdan əvvəl rəsmi internet saytında elan ediləcək. Hazırda paylaşacağımız tariximiz yoxdur", -deyə Viqand əlavə edib.

Xatırladaq ki, bu tədbir ilkin olaraq 2022-ci ilə planlaşdırılmışdı - sonradan təxirə salındı. Təxirə düşməsinə səbəb isə EES-nin işə salınmasının müxtəlif İT problemləri və quru, dəniz, hava sərhəd-keçid məntəqələrində avtomatlaşdırılmış maneələrin gec quraşdırılması idi. Amma artıq vəziyyət dəyişir - nəqliyyat operatorları, liman və hava limanı rəhbərləri artıq səslərini ucaldırlar. Onlar əlavə gecikmələrdən ehtiyatlanırlar.

Bildirilir ki, "Paris-2024" Olimpiya və Paralimpiya Oyunlarına görə yay mövsümündə heç bir sınaq keçirilmədiyi üçün sistemin səmərəliliyi ilə bağlı qeyri-müəyyənlik mövcuddur. Bununla belə, bir çox ölkələr EES sisteminin işə salmağa hazır olduqlarını iddia ediblər.



### Tətbiqlə bağlı narahatlıqlar - bəzi ölkələr hazır deyil

Bəli, dəyişiklik qüvvəyə mindikdə, Şengen zonasına daxil olmayan səyahətçilər uzunmüddətli sərhəd yoxlamaları ilə üzləşəcəklər. Bəzi ölkələr artıq sxem işə salındıqda xaosun baş verməsini ehtimal edir və bu təhlükəni də önə sürür. Bununla yanaşı, prosedurun yoxlamaları asanlaşdıracağına və daha çevik olacağına ümid edənlər də var.

Beləliklə, "The Independent"ə görə, AB ilə sərhəddəki ən işlək nəqliyyat qovşaqlarında, məsələn, Böyük Britaniyadan gələnlər üçün Fransaya giriş zamanı növbələri minimuma endirmək üçün ilk növbədə "təhlükəsizlik klapanı" sistemi işə düşəcək.

Məsələ ilə bağlı Avropa Şurasının "Statewatch" qeyri-kommersiya təşkilatı tərəfindən dərc edilən hesabatında deyilir ki, müxtəlif ölkələr EES-in tətbiqi ilə bağlı narahatlıqlarını ifadə ediblər. Məsələn, Malta yeniliyi işə salmağa ümumiyyətlə hazır deyil. Bu ölkədə hava limanlarında və dəniz limanlarında avtomatik idarəetmə üçün müvafiq avadanlıq alınmayıb.

Oxşar problem Aİ-də xarici vətəndaşları avtomatik yoxlamaq üçün cihaz almamış bir çox kiçik hava limanları üçün də aktualdır.

### 2 stansiya üçün 10 milyon avrodan çox büdcə...

Qeyd edilir ki, EES sistemi bütün sərhəd-keçid məntəqələrində, Şengen zonası ölkələrinin beynəlxalq hava limanlarında, eləcə də Fransa və Böyük Britaniya arasında hərəkət edən "Eurostar" sürət qatarı üçün vağzalda yerləşdiriləcək. Bu aparatlar pasportları və ya digər səyahət sənədlərini skan etməyə imkan verəcək. "Eurostar" şirkətinin məlumatına görə, Böyük Britaniyadakı "St Pancras" və Parisdəki "Gare du Nord" stansiyaları üçün büdcə 10 milyon avrodan çox olub.

EES sistemi səyahətçilərə sərhədi keçməzdən əvvəl pasportların skanı və biometrik məlumatlarla bağlı özünəxidmət köşklərini təqdim edəcək. Bu yeni protokol pasporta əl ilə möhür vurma sistemini əvəz etmək, giriş və çıxış prosesini daha təhlükəsiz və səmərəli etmək məqsədi daşıyır. Bununla belə, bu transformasiya rəqəmsal texnologiyaları o qədər də yaxşı bilməyən səyahətçilər üçün əlavə çətinlik yarada bilər.

### Hibrid və digər təhlükəsizlik təhdidlərinin artmasından qorunmaq üçün...

Məsələnin kökündə təhlükəsizlik amilinin dayanması isə Aİ strukturlarının rəhbərləri tərəfindən dolayısı ilə etiraf edilir. Avropa Komissiyasının rəhbəri Ursula fon der Leyen bildirib ki, Avropa İttifaqı qeyri-qanuni keçidlərə qarşı təhlükəsizliyini artırmaq üçün rəqəmsal icma sərhəd nəzarəti sistemi yaratmaq niyyətindədir. Biz tam fəaliyyət göstərən Avropa rəqəmsal sərhəd idarəetmə sistemi ilə Aİ-ni dünyanın ən qabaqcıl turizm məkanına çevirəcəyik. Bununla belə, biz həmçinin qeyri-qanuni keçidlərin qarşısını almaq və Aİ-ni hibrid və digər təhlükəsizlik təhdidlərinin artmasından qorumaq üçün sərhədlərimizin təhlükəsizliyini yaxşılaşdırmalıyıq", -deyə Ursula fon der Leyen bildirib. Avroskeptiklər Ursula fon der Leyenin rəqəmsal sərhəd nəzarəti sistemi haqqında danışarkən dəqiq nəyi nəzərdə tutduğunu araşdırır - bəzilərinin fikrincə, siyasətçinin bəyanatı yaxın gələcəkdə EES və ETIAS sistemlərini işə salmaq planlarını təsdiqləyir. Digərləri isə süni intellektdən istifadə edilməklə yeni layihənin həyata qədəm qoyacağına inanırlar.

Məsələnin birbaşa terror təhlükəsi ilə əlaqədar olması isə bütün ştrixləri üzrə bəllidir - artıq səyahətçilər hər üç ildən və üz skanları kimi biometrik yoxlamalardan keçəcək. Bu məlumatlar interpol xidmətləri üçün də əlçatan olacaq. Beləliklə, terror təhlükəsi və ya təhdidinin minimuma endirilməsi üçün vacib addımlar atılır - hansısa terror qruplarının nümayəndələrinin fərqli adlar altında ölkələrin ərazisinə girişi son ana qədər yoxlanılacaq.

*P.İSMAYILOV*

# Azərbaycan kinosunun Muxtar Dadaşov səhifəsi...



Bu gün Azərbaycan kino tarixində özünəməxsus izi olan, görkəmli rejissor, kinooperator, Azərbaycan SSR Dövlət mükafatı laureatı, Xalq artisti Muxtar Dadaşovun doğulduğu gündür.

Muxtar Baba oğlu Dadaşov 11 sentyabr 1913-cü ildə Bakıda anadan olub.

Hələ uşaq yaşlarından taleyi incəsənətə bağlanan Muxtar Dadaşov 1924-cü ildə, yəni cəmi 11 yaşı olarkən ilk dəfə Azərbaycan Dövlət Akademik Dram Teatrının səhnəsinə çıxır. Bundan dörd il sonra- 1928-ci ildə C.Cabbarlının "Sevil" pyesinin ilk tamaşasında Gündüz rolunu canlandırır. 1929-cu ildə Gənc Tamaşaçılar Teatrında rejissor assistenti kimi əmək fəaliyyətinə başlayan gənc sənətçi eyni zamanda tamaşalarda kiçik rollar oynayır.

1931-ci ildə kinostudiyada operator assistenti vəzifəsinə düzəlir. Bir sıra sənədli və bədii filmlərin lentə alınmasında iştirak edir. 1933-cü ildə ali operator təhsili almaq məqsədilə Moskvaya gedir. Orada da bir sıra filmlərin çəkilişində iştirak edir.

Moskvada təhsilini başa vurduqdan sonra böyük ümidlərlə vətənə dönür, kinostudiyada operator işinə qayıdır. 1935-ci ildə "Rəqs edən bağalar" bədii filminin (Abdulla Şaiqin "Oyunçu bağa" hekayəsi əsasında) quruluşçu operatoru olur.

Muxtar Dadaşovun sənədli filmləri Azərbaycan kinosu tarixində əhəmiyyətli yer tutur. Əksər filmlərində həm də ssenari müəllifi kimi çıxış edib. Müharibə dövrünün kinoxronikasının yaradılmasında xüsusi xidmətləri olan Muxtar Dadaşov 1943-cü ildə hitlerçilərin cinayətlərini tədqiq edən komissiyanın sərəncamına göndərilir. Burada köməkçisi İsmayıl Əfəndiyev ilə birgə faşistlərin vəhşiliklərini əks etdirən faktları lentə alır. Sonralar həmin kadrlar Nürnberq məhkəməsi prosesində sübut kimi nümayiş etdirilib.

Dövrün mühüm ictimai-siyasi hadisələri onun lentə aldığı sənədli filmlərin əsas mövzusunu təşkil edib. "Sovet Azərbaycanı", "Sovet Azərbaycanının 50 illiyi", "Arazın o tayında", "Sabir", "Kür", "Səadət yolu ilə" və s. filmlərində vətənin əsrarəngiz təbiəti, tarixi şəxsiyyətləri kino dili ilə tərənnüm olunub.

"Kəndlilər", "Yeni horizont", "Vətən oğlu", "Sualtı qayıq T-9" bədii filmləri onun operator kimi çox maraqlı və sanballı işlərindəndir.

Quruluşçu rejissor kimi isə debütü "Qanun naminə" bədii filmi olur. Xalq yazıçısı Süleyman Rəhimovun "Mehman" povesti əsasında çəkdiyi filmin ssenarisini də özü yazır.

Kinoya qəlbən bağlı olan sənətkar onu həyatın aynası adlandırırmış: "Sabir demişkən, "düzü-düz, əyrini-əyri" əks etdirməyə qadir olan möcüzədir. O, mənən saf, canını sənətə fəda edən istedadlı və professional şəxslərin əlində olmalıdır". Onun imzasını atdığı bütün filmlərdə öz dəsti-xətti, orijinal yanaşma tərzini özünü göstərib.

Muxtar Dadaşovun "Bakıda küləklər əsir" filmi müharibə mövzusunda çəkilən dəyərli ekran əsərlərindəndir. O, müharibə mövzusunda hələ 1943-cü ildə "Bakı döyüşür" adlı sənədli film çəkmişdi.

O həm də araşdırıcı rejissor olub. Çəkdiyi tarixi filmlər üçün zəngin material toplayar, sonra onları lentə alardı. "Nəriman Nərimanov" sənədli filminin (1966) çəkilişi zamanı da belə olub. N.Nərimanovun Genuya konfransındakı çıxışını əks etdirən kadrları Moskva arxivlərinin birindən tapır. Sonra həmin kadrları filmdə canlandırır.

50 ildən çox Azərbaycan kino sənətinin inkişafına, zənginləşməsinə xidmət göstərən Muxtar Dadaşov 1977-1983-cü illərdə Cəfər Cabbarlı adına "Azərbaycanfilm" kinostudiyasında Sənədli Filmlər Birliyinin bədii rəhbəri vəzifəsində çalışıb.

Onun həyat verdiyi ekran əsərləri təkcə Azərbaycanda deyil, dünyanın bir çox ölkələrində nümayiş olunub, özünə çox milyonlu tamaşaçı qazanıb. Muxtar Dadaşov imzasını özündə daşıyan Səadət yolu ilə" filmi Moskvada Ümumittifaq festivalında qızıl medala, "Nəriman Nərimanov" filmi Tiflis festivalında xüsusi mükafata layiq görülüb.

Azərbaycan incəsənətinə layiqincə xidmət göstərən bir sıra sənətkarlarımız kimi M.Dadaşovun da çoxşaxəli yaradıcı fəaliyyəti dövlətimiz tərəfindən hər zaman diqqətdə olub və yüksək şəkildə dəyərləndirilib. Belə ki, rejissor 1960-cı ildə Əməkdar İncəsənət xadimi, 1976-cı ildə Xalq artisti fəxri adlarına, eləcə də "Şöhrət" ordeninə layiq görülüb. Dövlət mükafatı laureatı olub.

Ömrünün sonuna qədər milli kinomuzun inkişafı naminə ürəklə çalışan sənətkar çəkilişlərdə məsləhətçi kimi də iştirak edib.

Muxtar Dadaşov 1998-ci il mayın 7-də vəfat etsə də, çəkdiyi, həyat verdiyi filmlər müəllifini Azərbaycan incəsənət tarixində daim yaşadır.

*Şahanə MÜŞFİQ*

# 2977 ölü, 24 itkin...
## 11 sentyabr 2001-ci il terrorundan 23 il ötür

**Tarixin bu günündə - 11 sentyabr 2001-ci ildə dünya Amerika Birləşmiş Ştatlarında "Əkiz qüllələr"də baş verən dəhşətli terror hadisəsindən silkələndi. Artıq həmin hadisələrdən 23 il ötür. Yaralar sağalıbmı? Demək çətindir. Ancaq bir şey bəllidir: Terrorun vətəni yoxdur. İnsanlığa, bəşəriyyətə qarşı yönələn belə əməllər əvvəlcədən xüsusi düşərgələrdə hazırlanan ayrı-ayrı fərdlər və yaxud mütəşəkkil dəstələr tərəfindən törədilir. Əksər hallarda isə bəd niyyətli əməllərin qurbanları sadə insanlar olurlar. "Əkiz qüllələr"də olduğu kimi.**

### Qərbdə "9/11" adlandırılan dəhşətli "Əkiz qüllələr" terroru

Terrorizmin yaranması tarixin dərin qatlarına gedib çıxır. Hazırda isə terrorizm qlobal bir xəstəliyə çevrilib. Deyə bilərik ki, indiki dövrdə terrorizmin coğrafiyası genişlənib və onun xarakteri daha da aqressivləşib. Siyasi, iqtisadi, humanitar, kibertəhlükəsizlik və digər məzmunlu terrorizm əməllərini fərqləndirmək mümkündür.

23 il bundan əvvəl ABŞ- da baş verən dəhşətli hadisələr yaxşı əlaqələndirilmiş və yaxşı hazırlaşmış 19 nəfər intiharçı terrorçu qrup tərəfindən dörd terror aktı ilə törədilib. Bu qrupun törətdiyi terror aktlarını Qərbdə adətən "9/11" adlandırırlar.

Terrorçular əvvəlcədən hazırlanmış ssenari üzrə hərəkət ediblər. Onlar mühafizənin nəzarətindən yayınmaqla hava limanına keçməyə müvəffəq olublar və müntəzəm reyslər yerinə yetirən dörd sərnişin avialaynerini zəbt edərək onları Nyu-Yorkda Manhettenin cənub hissəsində yerləşən Ümumdünya Ticarət Mərkəzinin qüllələrinə və Vaşqinqtonda Pentaqonun binasına yönəldiblər. Ehtimal edilir ki, terrorçular Kapitoliyanın və ya Ağ evin binasına uçmağa da cəhd göstəriblər. İndi artıq məlumdur ki, sonuncu təyyarə hədəfə çatmayıb, çünki bir qrup cəsur sərnişin terrorçuları zərərsizləşdirməyə nail olub və təyyarə Pensilvaniya ştatında yerə çırpılıb. Terror aktları nəticəsində 2977 nəfər həlak olub, 19 terrorçu ölüb, 24 nəfər itkin düşüb. Təbii ki, həmin günü ABŞ-də heç kəs unutmayacaq.

### ABŞ-da və dünyada terrora qarşı mübarizənin sərtləşdirilməsi

11 sentyabr terror aktları həm ABŞ-nin özündə, həm də bütün dünyada yeni transformasiyalara vəsilə olub. "Əkiz qullələr"dəki terrorun dünyanın supergüc dövləti sayılan ABŞ-də baş verməsi bir daha təsdiqlədi ki, hər hansı bir ölkə, şəhər və yaxud kənd terrordan sığortalanmayıb. O hər bir yerdə, hər kəsi yaxalaya bilər. Əvvəla, onu qeyd edək ki, ABŞ-də baş verənlər bir sıra terrorçu qruplaşmaları ruhlandırdı. Onlar gördülər ki, hətta ABŞ kimi güclü əks-kəşfiyyat sestemi olan ölkəni belə terror hadisələri ilə sınağa çəkmək mümkündür. Təsadüfi deyildir ki, dünya üzrə radikal terrorçu qruplaşmaların sayı yağışdan sonra göbələk kimi çoxalıb.

"Əkiz qüllələr" hadisələrinin səbəb olduğu ən böyük və mühüm transformasiya isə dünyanın terror qarşı "SOS" siqnalı çalması oldu. Bu gün dünyada terrorçuluğa qarşı çoxsaylı beynəlxalq qurumlar fəaliyyət göstərir. Bu sırada BMT-nin Terrorçuluqla Mübarizə İdarəsini, ATƏT-in Transmilli Təhdidlər Departamentini, Avropa Şurasının Terrorçuluğa qarşı mübarizə üzrə Ekspertlər Qrupunu (CODEXTER), eləcə də GUAM, Avropa İttifaqı, MDB, Şanxay Əməkdaşlıq Təşkilatını və digərlərini qeyd edə bilərik. O cümlədən Azərbaycan məlum hadisələrdən sonra beynəlxalq çağırışlara cavab olaraq öz hava məkanını və hava limanlarını Əfqanıstanda Əl-Qaidəyə qarşı mübarizə aparan beynəlxalq anti-terror koalisiyasının üzvlərinin üzünə açıb.

Xüsusilə də 11 sentyabr hadisələri Amerikanın özündə ümummilli birliyə təkan verdi, müxtəlif irqlərə, konfessiyalara və siyasi qruplara mənsub olan amerikalılar sıx birləşdirlər. "Əl-Qaidə"nin və onun lideri Üsəma ben Ladenin məhv edilməsindən, habelə Əfqanıstanda "Sarsılmaz azadlıq" adlı hərbi əməliyyat başlanandan sonra ABŞ hökuməti əvvəllər federal agentliklər ilə özəl sektor arasında əməkdaşlığa və informasiya mübadiləsinə əngəl törədən maneələri aradan qaldırdı. Federal agentliklər ştatlar səviyyəsində münasibətləri möhkəmləndirdilər, yerlərdə aparılan müşahidələr bilavasitə beynəlxalq və daxili terrorizmə qarşı mübarizə üçün çox faydalı oldu. Birləşmiş Ştatların təhlükəsizliyinin lazımi səviyyədə təmin edilməsi üçün 2002-ci ildə Daxili Təhlükəsizlik Nazirliyi yaradıldı. Terror aktları törədilməsinə və təbii fəlakətlərin nəticələrinə qarşı mübarizə məqsədilə bütün idarələrin optimal qarşılıqlı fəaliyyətinə nail olmaq üçün yaradılmış, prinsip etibarilə yeni olan bu qurum çoxsaylı təhlükəsizlik xidmətlərini birləşdirir.

Terror aktlarına cavab tədbirləri ilə bağlı dəyişikliklər nəticəsində, Federal Təhqiqatlar Bürosunun (FTB), digər federal agentliklərin və ABŞ-nın beynəlxalq tərəfdaşlarının gərgin işi sayəsində o vaxtdan bəri Amerika ərazisində xarici terror təşkilatları tərəfindən heç bir iri-miqyaslı hücum baş verməyib. Lakin ABŞ-ın səylərinə baxmayaq son 20 ildə texnologiyalar inkişaf etdikcə, dünyada qarşılıqlı əlaqələr möhkəmləndikcə, məlum təhdidlər transformasiyaya məruz qalıb, yeni təhdidlər yaranıb. Xüsusilədə son vaxtlarda kibertəhlükəsizliklə bağlı təhdidlər artıb. Belə təhdidlər adətən ölkələrin hüdudlarından kənarda təşkil olunur.



### Günümüzün reallığı -siyasi terrorlar

Dünya miqyasında terrorçuluğa qarşı mübarizənin sərtləşdirilməsinə, bunula bağlı çoxsaylı qurumların yaradılmasına baxmayaraq, hələlik terrorun kökünü kəsmək mümkün olmayıb. Qeyd etdiyimiz kimi, törədilən terror hadisələrinin xarakteri fərqli olur. Son illərdə isə siyasi məzmunlu terrorların sayının artdığını müşahidə edirik, Deyə bilərik ki, belə terrorlar günümüzün reallığına, dünya ölkələrinin başının bəlasına çevrilib. Məsələn, qardaş Türkiyə 2016-cı il iyulun 15-dən 16-na keçən gecə dəhşətli terror hadisəsi ilə silkələndi. Qeyd olunan tarixdən bizi artıq səkkiz illik zaman məsafəsi ayırır. Baş verələrin isti izlərlə araşdırılması nəticəsində terror hadisələrinin FETÖ tərərfindən törədildiyi müəyyənləşdirildi. FETÖ-nün təmsilçiləri isə uzun müddət din pərdəsi altında gizlənməyi və təşkilatlanmış şəbəkə qurmağı bacarmışdılar. Ancaq şəbəkənin üvləri özlərini müxtəlif adlar altında dini-ideoloji cərəyan nümayəndələri kimi təqdim etsələr də, bu cərəyanın və yaxud qurumun İslam dininə hansısa bir bağlılığı olmayıb. Qardaş Türkiyənin qan yaddaşına əbədi olaraq həkk olunmuş həmin gecədə baş vermiş mənfur çevriliş cəhdi ölkəninin milli maraqlarına, demokratik əsaslarına və hüququn aliliyinə qəsd idi. İslamofob dairələr tərəfindən istiqamətləndirilən və tamamilə siyasiləşmiş FETÖ-nün məlum terror hadisələrini törətməkdə məqsədi radikal şəriət qanunları ilə idarə olunan dövlət qurmaq olub. Hadisələr zamanı daha əvvəl orduda yerləşdirilmiş gülənçilər və FETÖ-yə bağlı olan qüvvələr legitim hakimiyyəti hərbi yolla ələ keçirmək məqsədi güdürdülər. Lakin FETÖ və digər satqın qüvvələrlə birləşən imperialist güc mərkəzlərinin qurduqları dövlət terroru planları 15 iyul 2016-cı il tarixində növbəti dəfə iflasa uğradı. Milyonlarla insan dövləti xilas etmək, Prezident R.T.Ərdoğanla həmrəylik nümayiş etdirmək üçün ayağa qalxdı. Bu böyük gücün qarşısında FETÖ, ona himayədarlıq edən qüvvələr dayana bilmədilər və məğlubiyyətə uğradılar.

Dünyada böyük rezonans doğuran ən son siyasi terror aktı isə qonşu İranın patytaxtı Tehranda törədilib. HƏMAS hərəkatının Siyasi Bürosunun rəhbəri İsmayıl Haniyə iyulun 31-də öldürüldü. Xatırladaq ki, İsmayıl Haniyəyə qarşı terror hadisəsi Tehrandakı iqamətgahında baş verib. Hadisə İran Prezidenti Məsud Pezeşkianın andiçmə mərasimindən sonra qeydə alınıb. Qətərdə yaşayan İsmayıl Haniyə məhz İranın yeni seçilən dövlət başçısının inaqurasiya mərasimində iştirak etmək məqsədilə Tehrana gəlmişdi. Rəsmi Tehran bu terror hadisəsinin qisasını artıqlaması ilə alacağını bildirsə də, hələlik praktiki müstəvidə hansısa bir addım atmayıb. Belə görünür ki, İran yalnız proksilərinə dəstəyini artırmaqla işini bitmiş sayır...

*Mübariz FEYİZLİ*

# Aİ Slovakiyanı niyə cəzalandırır?
## Brüssel rəsmi Bratislavanın müstəqil mövqeyini həzm edə bilmir

**Avropa İttifaqı müstəqil siyasət yürütməyə çalışan və proseslərə fərqli yanaşan ölkələrə qarşı cəza tətbiq etmək niyyətindədir. İttifaqdaxili ölkələr arasında Brüsselin bəzi qərarları ilə razılaşmayan iki ölkə var. Onlar Macarıstan və Slovakiyadır. Hazırda Macarıstan Avropa İttifaqına sədrlik etsə də, Brüssel müxtəlif addımlarla bu ölkənin sədrliyini məhdudlaşdırmağa çalışır.**

### Absurd ittiham- Slovakiyada "demokratik normalar aşınır"?

Eyni zamanda, Avropa İttifaqı Slovakiyanı qəribə ittihamla - "demokratik normaların aşınmasına görə" cəzalandırmaq təklifi üzərində işləyir. "Bloomberg" agentliyi xəbər verir ki, bu addım blokun rəsmi Bratislavaya ayrılan vəsaiti saxlamasına səbəb ola bilər.

Agentliyə məsələ ilə bağlı məlumatlı mənbələr bildiriblər ki, Avropa Komissiyası Slovakiyanın Baş naziri Robert Fitsonun Aİ fondları ilə bağlı bəzi korrupsiya işlərinə baxan xüsusi prokurorluğu ləğv etmək addımına cavab olaraq prosedurun başlanması barədə qərar hazırlayıb. Proses ilkin mərhələdədir və komissiya rəhbəri Ursula fon der Leyenin təsdiqini tələb edəcək.

### Bratislava 12,8 milyard avrodan məhrum edilə bilər

Slovakiyadakı bütün dövlət investisiyalarının təxminən 80 faizi Aİ fondları tərəfindən maliyyələşdirilir. Hər hansı potensial maliyyə problemi həddindən artıq dövlət maliyyə kəsiri problemi ilə üzləşən ölkəyə böyük zərbə olacaq. Təkliflərdən biri Komissiyanın Aİ-yə pullarını risk altında gördüyü zaman maliyyələşdirməni dondurmağa imkan verən şərtilik mexanizmindən istifadə etməsidir. Mənbələrin bildirdiyinə görə, bu yolla Aİ blokun büdcəsində Slovakiyaya ayrılan 12,8 milyard avro (14,2 milyard dollar) birləşmə fondunun bir hissəsini özündə saxlaya biləcək.



### Macarıstandan sonra cəzalandırılan ikinci ölkə

Agentliyin həmsöhbətlərindən biri bildirib ki, Komissiya həmçinin Slovakiyanın Aİ-nin pandemiyadan xilasetmə xərclərinin bir hissəsi kimi aldığı COVID-19 qrantlarında 2,7 milyard avronun hamısını və ya bir hissəsini geri götürmək imkanlarını araşdırır. Xüsusi Prokurorluq bu vəsaitlərin bölüşdürülməsinə nəzarət edən qurum idi. Slovakiya blokun Macarıstanın birləşmə fondlarından almalı olduğu 6,3 milyard avronu dondurmasından sonra Aİ-nin şərt mexanizminin tətbiq edildiyi ikinci ölkə olacaq.

Ümumiyyətlə, Avropada belə bir böhran getdikcə artmaqdadır. Sağlam düşüncəli liderlər mövcud problemlərin səbəblərini göstərməklə yanaşı, vəziyyətdən çıxış yolunun tapılmasını vacib hesab edirlər. Belə liderlər sırasında Macarıstanın Baş naziri Viktor Orban xüsusi vurğulanmalıdır. V.Orban Avropa İttifaqı məkanında yaranmış problemlərdə rəhbərliyin əsas səbəbkar olduğunu bəyan edir. Hələ Macarıstanın Avropa İttifaqına sədrliyi ərəfəsində Baş nazir Orban Avropa İttifaqının rəhbərliyində dəyişikliklərin tərəfdarı olduğunu bildirmişdi: "Brüssel avropalıların həyatını taleyin ümidinə buraxıb. Bir tərəfdən Brüsselin siyasəti, digər tərəfdən isə avropalıların maraqları və iradəsi arasında heç vaxt bu qədər uçurum yaranmayıb". Orbanın fikrincə, Avropa İttifaqının rəhbərliyində dəyişikliklərin edilməsi zəruridir. Bu, yalnız məqsədyönlü tədbirlər nəticəsində baş verə bilər. "Brüsseldə bu dəyişikliklər olmalıdır ki, brüsellilər arasında heç olmazsa, bir neçə avropalı da olsun", - deyə Orban fikrini şərh edib. O, habelə Avropanı yenidən "qüdrətli etməyə" səsləmişdi.

### Robert Fitsoya qarşı sui-qəsd unudulmamalıdır

Slovakiyanın Baş naziri Robert Fitso da bu ilin may ayında Azərbaycana səfəri zamanı Avropa İttifaqını tənqid etmişdi. O, "Slovakiya 2020-2023-cü illərdə Avropa İttifaqı tərəfindən nə dərəcədə biganə yanaşmanın nümunəsidir" demiş və Brüsselin başqa ölkələrə "ara-sıra təlimat verməyi xoşladığını" vurğulamışdı. Fitso Bakıda Aİ-nin siyasətini tənqid edəndən qısa vaxtdan sonra, elə may ayında sui-qəsdə uğradı. Slovakiyanın Baş nazirinə atılan gülləni bir çox ekspertlər fərqli və milli marağa hədəflənən siyasi mövqeyə atılan güllə kimi dəyərləndirdilər. Bu, Qərb, Aİ-də hegemonluq edən qüvvələr tərəfindən Slovakiya dövlətinə qarşı bir "xəbərdarlıq" idi. Yəni, Ukrayna-Rusiya müharibəsinə münasibətdə Aİ-nin qeyri-adekvat mövqeyinə etiraz edən Macarıstanın, özünün milli maraqlarına istinad edərək Aİ-nin apardığı siyasətə etiraz edən Slovakiya kimi ölkələr Qərbin əsas hədəfinə çevrilir. Etiraz olaraq səslənən fikirlər, ortaya qoyulan mövqelər, nümayiş etdirilən yanaşmalar isə son olaraq təhdidlərlə, hətta terror aktları ilə "cavablandırılır".

Nə qədər paradoksal olsa da, gerçəkdə demokratiyanı boğan Aİ Slovakiyanı "demokratik normaların aşınmasına görə" cəzalandırmağı düşünür. Əslində isə, bu addım məhz Slovakiyanın demokratiyanın əsas elementlərindən biri olan fikir plüralizminə, sərbəst, müstəqil mövqe nümayiş etdirdiyinə atılır.

Aİ məkanında demokratiyanın təhdidlərlə üz-üzə qalmasını müxtəlif təşkilatlar da vurğulayıblar. Perspektiv üçün proqnozlar da nikbin deyil. Belə ki, Avropa İttifaqının Əsas Hüquqlar Agentliyinin (FRA) iyun ayında açıqladığı son hesabatında bildirilir ki, yoxsulluq səviyyəsinin artması, demokratiyaya hücumlar, irqçilik və ksenofobiya, eləcə də miqrasiya problemləri 2024-cü ildə Avropa İttifaqında fundamental hüquqlar üçün əsas təhdidlərdir. Təşkilatın hesabatına əsasən, yaşayış xərclərinin, xüsusən də enerji qiymətlərinin artması ona gətirib çıxarıb ki, insanların 20 faizi (hər beş nəfərdən biri) səfalət içindədir. Bununla əlaqədar olaraq, Vyanada yerləşən agentlik üzv dövlətləri yoxsulluğun və elektrik enerjisinə xərclərin azaldılmasına dair tədbirlərin əhalinin ən aztəminatlı qruplarına şamil olunmasına çağırır. FRA gəlirlərin artmasına məhdudiyyətlərin mövcud olduğu, sosial gəlirin isə həddindən artıq yoxsulluq hallarına gətirib çıxaran 12 üzv dövlətdə sosial problemlərin yumşaldılmasına dair tədbirləri müəyyən edib.

Agentlik, miqrasiya təzyiqini nəzərə alaraq, dənizdə axtarış-xilasetmə əməliyyatlarını gücləndirməyi (hesabata əsasən, 2023-cü ildə Aİ ölkələrinə üz tutan 4 mindən çox insan həlak olub) və gəldikdən sonra miqrantlarla ünsiyyət üçün daha təhlükəsiz şərait təmin etməyi tövsiyə edir. FRA eləcə də dövlətin dinc yığıncaqlar və fikirləri ifadə etmək azadlığı hüququna münasibətdə həddən artıq müdaxiləsini pisləyir və qeyd edir ki, bu, mülki məkana təhdiddir, belə vəziyyət ictimai işlərdə əhəmiyyətli iştirakın mövcud olmaması deməkdir və dezinformasiya ilə birləşdikdə bütün Avropa ölkələrində demokratiyaya xələl gətirir. "27 üzv dövlət, həmçinin vətəndaş cəmiyyətinin müdafiəsini gücləndirməli, antisemitizm və islamofobiyanın artması barədə xəbərdarlıq edərək, həyəcanlı tendensiya kimi təsnif etdikləri irqçilik və dözülməzliyin bütün formaları ilə mübarizə aparmalıdır",-deyə hesabatda vurğulanıb.

### Brüssel təhdid deyil, problemlərin həlli yolunu tutmalıdır

Göründüyü kimi, Avropa İttifaqı məkanında bütün sferaları əhatə edən problemlər artmaqdadır. Aİ dünyanın müxtəlif regionlarında proseslərə müdaxilə etməkdənsə, eləcə də, Slovakiya kimi problemləri açıqlayan və onların həllini tələb edən ölkəyə təzyiqlər etməkdənsə, özünün daxili məsələlərinə daha çox diqqət ayırmalıdır.

*Nardar BAYRAMLI*

YENİ AZƏRBAYCAN

http://www.yeniazerbaycan.com

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir



**“Yeni Azərbaycan” qəzetinə abunə olmaq istəyənlər aşağıdakı yayım şirkətləri ilə əlaqə saxlaya bilərlər:**

“Azərpoçt” MMC PDM- 0125984955, 0552004544
“Azərmətbuatyayımı” ASC - 0124411991, 0124404694
“Səma” MMC - 0125940252, 0503336969
“Pressİnform” MMC - 0703400100, 0504560835
“Qaya” MMC - 0125667780, 0502352343
“Qasid” MMC - 0124931406, 0124938343
F.Ş.Ruhid Hüseynov - 0124349301, 0505357898
“Türküstan Media Group” MMC – 050 241-48-23
“Region Press” MMC – 055 316-79-01
“Ziya LTD” MMC - 0124977696, 0503067744

**6 aylıq abunə - 79,20 AZN**
**12 aylıq abunə - 158,40 AZN**




# Sivilizasiyanın ilk yazılı dili: Şumer bitikləri



## Şumer mixi yazıları planetin ən qədim dilidir

Qədim insanlar öz aralarında ünsiyyət və informasiyanı sürətləndirmək üçün ardıcıl, mənalı nitqi icad etmələri əsl şüur inqilabı idi. Sonralar zaman-zaman həmin nitqin formalaşdırdığı yeni insan cəmiyyətləri özlərinin yaratdığı ənənələri, bahadırlıq dastanlarını, nağıl və əfsanələri daşlaşmış dil vasitəsilə, həkketmə üsulu ilə sonrakı nəsillərə ötürmüşlər. Odur ki, min illər gerini tədqiq edən alimlər əcdadlarımızın yaratdığı, insanlığa miras qoyub getdiyi həmin mifik dilə və müxtəlif müstəvilərə həkk etdikləri tarixə görə onlara daim minnətdardırlar.

## İlk yazılı dil

Həm də ən inandırıcı versiyalar söyləyir ki, insan sivilizasiyasının əsas ixtirası şifahi nitq yox, məhz, yazıdır. Müasir alimlərin insanlıq tarixinin yazıdan milyonlarla il əvvəlki keçmişini “zülmət dövrü” adlandırması da bunu sübut edir. Bu mənada, yazı dövrü insanlığın işıqlanma dövrü kimi səciyyələndirilir.

Şübhəsiz, tarixi faktlar qeydə alınmadan hər hansı obyektiv həqiqəti müəyyən etmək mümkün deyil.

Keçmişi mağara rəsmlərindən öyrənmək, dünyanı əli yenicə qələm tutan uşağın sadəlövh rəsmlərindən öyrənmək kimidir. Bəli, qayaüstü rəsmlərdə ətraf aləmin bir növ mücərrəd əksini görə bilərsiniz. Bu cür suallar alimləri də çox düşündürüb, görəsən, əcdadlarımız bu təsvirləri hansı məqsədlə həkk edirdilər? Hansısa ritualın əksi kimi yoxsa, bədii yaradıcılıq nümunəsi kimi? Bəlkə də qayaüstü ibtidai incəsənətin əsasında tamam başqa səbəblər dayanırdı? Hələ ki müasir elm bu barədə konkret qərara gələ bilməyib.

Eləcə də dünyanın ilk yazılı dili ilə bağlı mübahisələr hələ də davam edir. Məsələn, bəzi mütəxəssislərə görə ilk yazılı dil eramızdan 5 min il əvvəl Krit adasında meydana gəlib. Bu versiya ilə qismən razılaşmaq olardı. Lakin məsələ orasındadır ki, bir vaxtlar mövcud olduğu ehtimal edilən həmin naməlum dil, Aralıq dənizi hövzəsində mövcud olmuş və qədim insanın düşüncəsində inqilab yaratmış əsrarəngiz Şumer sivilizasiyası kimi güclü sütunlara malik olmayıb. Yəni, bəzi alimlərin versiya kimi irəli sürdüyü Krit adasında yaranmış ibtidai dil tarixin sınaqlarına dözməyərək əriyib yoxa çıxıb.

## Şumer dilinin təkamülü

Xatırladaq ki, Şumer krallığı eramızdan əvvəl IV əsrdə Cənubi Mesopotamiya ərazisində meydana gəlmiş ilk üç sivilizasiyadan biridir. Bu gün dünyanın bir çox nüfuzlu dilçi alimləri də etiraf edir ki, gil bitiklər üzərində həkk olunmuş şumer mətnlərindəki çoxlu sayda sözlər müasir türk dilinin kök sözləri ilə səsləşməkdədir. Şumer krallığı dedikdə, söhbət qeyd etdiyimiz coğrafiyada yerləşən və biri-biri ilə ticari, eləcə də diplomatik əlaqələri olan şəhər dövlətlərindən gedir. Şumerlərin məşğuliyyəti çoxmiqyaslı idi. Araşdırmaçılara görə eramızdan əvvəl 5500-4000-ci illərdə böyük şəhərlərin sakinləri əsasən sənətkarlıqla məşğul olur, məskunlaşdıqları əraziləri qoruyucu divarlarla hasarlayırdılar.

Eramızdan əvvəl 3-cü minillikdə Şumer şəhərləri tədricən Akkad çarlığının istilasına məruz qaldı. Lakin maraqlıdır ki, işğalçılar Şumer mədəniyyətinə, dilinə, ədəbiyyatına toxunmadılar. Əksinə, akkadlar şumer mədəniyyətini yeni bir xəzinə kimi qəbul etdilər, şumer əlifbasını və dilini, eləcə də şumer mifologiyasını mənimsəyərək özününküləşdirdilər. Eləcə də şumer dili sonralar Akkad sarayında elitar dil kimi istifadə olundu.

Bir müddət sonra tarixin təkəri başqa cür fırlandı və eramızdan əvvəl 2-ci minilliyin ortalarında Şumer-Akkad dövləti Babil imperiyası tərəfindən qəsb edildi. Babillilər də şumer dilini yaşatdılar, bu dil qədim Babilistanın ədəbiyyat və mədəniyyət dilinə çevrildi.

## Doğma əcdadlarımızın yadigarı



Qədim şumer yazısının ilkin versiyası müasir oxucu üçün çox çətin anlaşılandı. Belə ki, həmin mətnlər yuxarıdan aşağıya oxunsa da, sağ sütundan başlayaraq sol sütuna doğru oxunurdu. Üçüncü minillikdə isə yazılı dilin quruluşunda getdikcə yeni “inqilablar” müşahidə olunmağa başladı. Nəticədə informasiyanın ötürülmə forması əvvəlki mətnlərin yerləşdiyi kimi oldu, lakin sətirlər yuxarıdan aşağıya düzülsə də mətn soldan-sağa oxundu.

Aparılan tədqiqatlar nəticəsində məlum oldu ki, bu gün Aralıq dənizi hövzəsində yaşayan xalqlara məxsus müasir dillərin qədim əcdadları şumer dili ilə bu və ya digər dərəcədə yaxın, hətta qohumdur. Məsələn, şumer dilinin türk-altay dil ailəsinə yaxın qohumluğu sübuta yetirilmiş faktlardandır. Tarix boyu mədəniyyətlərin daşınması dillərin də biri-birinə təsir göstərməsinə, inteqrasiyasına, mənimsənilməsinə yol açıb. Bu səbəbdən, məsələn, qədim pəhləvi və ya ivrit dilində şumer sözləri aşkarlanırsa, əslində, burada təəccüb doğuran məqam yoxdur.

Əslində, Şumer dilinin böyük bir coğrafiyanın dili olduğunu 19-cu əsrin sonunda, arxeoloji tədqiqatlar nəticəsində böyük gil lövhələrin aşkar edilməsi ilə anlamış olduq. Qazıntılar nəticəsində tapılan artefaktlar içərisində işğalçı dövlətlərə şumer dilini öyrənməyə kömək edən ibtidai lüğətlərə də rast gəlinib. Bu arxeoloji materiallar tarixçilərə qədim mətnləri oxumağa və təkcə əsrlər yox, minilliklər əvvəl baş vermiş hadisələri inanılmaz dəqiqliklə müəyyənləşdirməyə imkan verdi.

## Şumer mixi yazısının texniki xüsusiyyətləri

Bu günümüzə qədər gəlib çatan Şumer mixi yazıları gil lövhədə xüsusi bir qələm ilə ekstrüde edilmiş uzunsov üçbucaqlardan ibarətdir. Bu “üçbucaqlar” müxtəlif kombinasiyalarda tərtib edilmiş və müxtəlif uzunluqlu simvollara malikdirlər. Müxtəlif yazı işarələri olan həmin birləşmələr həm heca və səsi, həm də bütöv bir anlayışı ifadə edir.

Bütün yazı növləri kimi, Şumer mixi yazısı da yavaş-yavaş dəyişərək tədricən inkişaf etmişdir. Əvvələr o, üçbucaq formasında deyil, piktoqrafik işarələrdən ibarət bir növ “yaddaş izləri” olan primitiv, əyri-üyrü gil lövhələrdən ibarət olub. Ən qədim gillərdə tapılan ilkin yazı nümunələrini, işarə dilini tamamilə aydın başa düşmək mümkün deyil, burada ancaq simvolların formasına baxaraq nə ifadə edildiyini təxmin etmək olur.

Yazılı nitqin təkamülü zamanı bu simvol və işarələr müxtəlif sözləri ifadə etməyə imkan yaradıb. Şumer mixi yazılarında indiyədək oxuna bilən simvol-sözlərin ümumi sayı 600-ə çatır. Məşhur türkoloq Oljas Süleymenovun iddia etdiyinə görə həmin sözlərin təxminən səksəni müasir və qədim türk sözləri ilə eyni kökdəndir.

Beləcə, şifahi nitq tədricən zənginləşdikcə yazılı nitq mədəniyyəti də getdikcə sistemləşdirildi, həmçinin sadələşdirildi. İlkin yazılı dil nümunəsi olan piktoqrafik simvollar sadələşdirilərək üçbucaqlar sistemi ilə ifadə olundu və daha asand oxunmağa hesablandı.

***Murad Köhnəqala***


## Azercell yeni Wi-Fi cihazını təqdim edir




***4G modem alan hər kəsə 55Gb internet hədiyyə olunur***

“Bağlantını asanlaşdırır, həyatı daha dolğun edirik” strateji məqsədinə sadiq qalan “Azercell Telekom” MMC yeni Wi-Fi cihazını təqdim edir. Xüsusi kampaniya çərçivəsində Wi-Fi modem alan hər kəsə Fakturasız xətt data nömrə və 55GB həcmində internet paketi (istifadə müddəti 30 gün) hədiyyə olunur. Yeni modemi 159 AZN-ə əldə etmək mümkündür.

64-ə qədər cihazın eyni anda yüksək sürətli internetə qoşulmasını təmin edən bu modem smartfon, kompüter, noutbuk, planşet, printer, televizor və s. bu kimi cihazları dəstəkləyir. Yeni 4G Wi-Fi modem ev və ofis ilə yanaşı, istirahət zamanı portativ internetə ehtiyacı olan istifadəçilər üçün də ideal bir həlldir. Belə ki, cihaz 90 metrlik radiusda stabil internetə qoşulma imkanı təqdim edir.

Kampaniyadan faydalanmaq istəyən abunəçilər ən yaxın Azercell satış məntəqəsinə müraciət edə bilərlər.

Ətraflı məlumat üçün veb-səhifəyə keçid etməyiniz xahiş olunur.

Azercell-in yeni Wi-Fi kampaniyasına qoşularaq yüksək sürətli internet təcrübəsindən yararlanın!


# İdman

## Paris Paralimpiadasında medal qazanmış Azərbaycan idmançıları Vətənə dönüblər



Fransanın paytaxtı Paris şəhərində keçirilən Yay Paralimpiya Oyunlarında medal qazanmış Azərbaycan idmançıları Vətənə dönüblər.

AZƏRTAC xəbər verir ki, mükafatçıları Heydər Əliyev Beynəlxalq Aeroportunda Azərbaycan Paralimpiya Komitəsinin nümayəndələri, media mənsubları, azarkeşlər və idmançıların yaxınları qarşılayıblar.

Qeyd edək ki, “Paris-2024” Yay Paralimpiya Oyunlarında 7 idman növü üzrə 18 idmançı ilə təmsil olunan Azərbaycan 4 qızıl, 2 gümüş və 5 bürünc olmaqla ümumilikdə 11 medal qazanıb. Ölkəmiz medal sıralamasında 169 ölkə arasında 28-ci yeri tutub.

## İdmançılarımızın V Dünya Köçəri Oyunlarındakı mübarizəsi: uğurlar və çətinliklər




Qazaxıstanın paytaxtı Astanada V Dünya Köçəri Oyunları keçirilir. Bu mötəbər idman tədbirinə dünyanın müxtəlif ölkələrindən idmançılar qatılıb. Azərbaycan idmançıları da bu yarışlarda iştirak edir. Turnir çərçivəsində idmançılarımız müxtəlif idman növlərində medallar uğrunda mübarizə aparırlar.

Gərgin keçən yarışlardan sonra biz idmançılarımızın təəssüratlarını öyrənməyə çalışdıq.

Qazaq güləşi yarışında gümüş medal qazanan Emil Həsənov (74 kq) AZƏRTAC-a bildirib ki, nəticəsindən təəssüflənir, çünki hamı ondan qızıl medal gözləyirdi. “Mən daha yüksək nəticə göstərə bilmədim, çünki barmağım zədələnmişdi, bir də güləş zamanı qabırğam əzildi. Bizim idman növümüzdə əllər çox önəmlidir, bu səbəbdən mənim üçün çətin oldu. 2022-ci ildə mən Köçəri Oyunlarının qalibi olmuşdum. Bu il də məndən eyni nəticə gözləyirdilər, lakin ikinci yerə çıxa bildim”, - deyə o qeyd edib.




Emil Həsənov əlavə edib ki, Köçəri Oyunlar İslam Oyunları və Avropa Oyunları kimi nüfuzlu bir yarışdır. “Burada zəif idmançı olmur, hamısı güclüdür. Hər bir rəqibin özəlliyi var, hamısı da güclü mübarizə aparan idmançılardır”, - deyə o vurğulayıb.

Qazaq güləşi yarışında idmançımız Eyvaz Baxşıyev (60 kq) qazaxıstanlı Meirzhan Bereketova qalib gələrək gümüş medal qazanıb.

O bildirib ki, yarış çox yüksək səviyyədə təşkil olunub, bütün rəqiblər yaxşı hazırlaşıblar: “Qazaxıstanda bu idman növü üzrə və qazax idmançısı ilə mübarizə aparmaq çox çətindir, amma biz də əlimizdən gələni etdik”.

O, qazaxıstanlı idmançı ilə görüşündən əvvəlki rəqibləri barədə danışıb: “Üç görüşüm oldu: eston, italyan və özbək rəqiblərlə. Eston və italyanı demək olar ki, 15-20 saniyəyə məğlub etməyi bacardım, amma özbəklə 5 dəqiqəlik gərgin mübarizə apardım. Çox güclü rəqib idi, yarımfinal görüşünə bərabər bir görüş idi”.

Eyvaz Baxşıyev xatırladıb ki, qazaq güləşi üzrə bu il Avropa çempionu olub və dünya kubokunun gümüş mükafatçısıdır.




Qazaq güləşi yarışında idmançımız Ülviyyə Bayramova (52 kq) moldovalı Mariya Leorda qalib gələrək bürünc medal qazanıb.

Onun sözlərinə görə, cüdo idman növü ilə məşğuldur. “İlk dəfədir ki, Dünya Köçəri Oyunlarına qatılıram. Birinci görüşüm rus idmançısı ilə oldu, çox çətin idi, lakin təmiz qələbə əldə etdim. Sonra qazax idmançısına, çox təəssüf ki, məğlub oldum. Bura gələn hər bir idmançı güclüdür. Zəif idmançı yoxdur. Hamımız əziyyət çəkmişik”, - deyə o bildirib.

Qazaq güləşi üzrə yığma komandanın baş məşqçisi Ələkbər Əliavsarov qeyd edib ki, bura 60-dan çox ölkədən idmançı gəlib və hamısı da adlı-sanlı idmançılardır: “Hər çəkidə 25-30 idmançı var. Ağır yarış keçdi. Bura gələn idmançıların çoxu titullu idmançılardır. Hamısı Avropa birinciliyinin mükafatçısıdır. Bizim idmançılarımız da zəif deyil. Kim güclüdürsə, o qalib gəlir. Yerli idmançılarla görüşlər çətin keçdi. İnşallah, gələcəkdə daha yaxşı olar”.


Təsisçi:
Yeni Azərbaycan Partiyası
Baş redaktor:
Alqış HƏSƏNOĞLU

www.yeniazerbaycan.com
mail@yeniazerbaycan.com
Ünvan: Bakı - AZ-1000, Üzeyir Hacıbəyli - 66
Telefonlar:
598-37-76, 498-82-21
498-81-24, 498-19-84

İndeks: 67100
Lisenziya: N-B-317
Tiraj: 4934
Sifariş: 2089
“Kapital Bank” ASC-nin Nərimanov rayon filialı
h/h - 33080019443900419109
kod - 200093
VÖEN - 1500486601

Qəzet “Yeni Azərbaycan”ın bilgisayar mərkəzində yığılıb, səhifələnib və “Azərbaycan” nəşriyyatında ofset üsulu ilə çap edilib.

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur.
Məsul növbətçi:
Yeganə Bayramova